RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 72 (8951) ŞƏNBƏ, 9 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Sülh gündəliyini İlham Əliyev müəyyənləşdirir

Qətiyyətli siyasəti ilə torpaqlarımızı işğaldan azad edən Prezident İlham Əliyev müdrik diplomatiyası ilə Azərbaycanın postmüharibə dövründə də zəfərlərini təmin edir. Aprelin 6-da Brüsseldə keçirilən üçtərəfli formatda növbəti görüş bunun təsdiqi oldu. İlham Əliyev əvvəlki Brüssel, habelə Moskva və Soçi görüşlərində olduğu kimi, bu dəfə də məğrur duruşu və görkəmi ilə diqqəti cəlb etdi.

## Azərbaycan mənafelərini qətiyyətlə təmin edir

Qeyd edək ki, bu, 44 günlük müharibədən sonra Prezident İlham Əliyev və Ermənistanın baş naziri arasında keçirilən altıncı görüş idi. Əvvəlki görüşlərin hər birinin məzmunu Azərbaycanın müharibədəki zəfərindən sonra yaratdığı yeni reallıqların mahiyyətinə uyğun olmuşdur. Münasibətlərin normallaşdırılması, regionda kommunikasiyaların bərpası istiqamətində respublikamızın təşəbbüs və təklifləri həm Avropa İttifaqı, həm də Rusiya tərəfindən dəstəklənmişdi. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə Brüsseldə keçirilən növbəti görüş də proseslərin Azərbaycanın maraqları çərçivəsində cərəyan etməsi baxımından növbəti uğurlu mərhələ oldu.

## Brüssel görüşü bir daha göstərdi ki, proseslər Azərbaycanın maraqlarına uyğun gedir

Görüşdə postmünaqişə mərhələsində bölgənin inkişafı ilə bağlı Azərbaycanın hər zaman çıxış etdiyi prinsiplər, o cümlədən 2020-ci ilin 10 noyabr Bəyanatının müddəalarına tam riayət olunması, tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması, nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib. Humanitar tədbirlərin tərəflər arasında sülh və etimadın təşviq olunması baxımından əhəmiyyəti, o cümlədən itkin düşmüş şəxslərlə bağlı məsələlər, minaların təmizlənməsinin vacibliyi vurğulanaraq, Avropa İttifaqının bölgədə aparılan humanitar minatəmizləmə, eləcə də reabilitasiya və rekonstruksiya işlərinə dəstək verəcəyi qeyd olunub.

4 saat yarımdan artıq davam edən görüşün nəticəsi Şarl Mişel tərəfindən verilmiş bəyanatda təsbit edilib. Bəyanatda qeyd olunur ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılması qərara alınıb. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan XİN-lərinə müvafiq təlimatlar verilib. Tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, birinci növbədə sərhədlərin delimitasiya prosesinə başlanması barədə razılıq əldə olunub.

Bütövlükdə bu görüşün nəticələri göstərdi ki, Brüsseldə formalaşmış sülh gündəliyinin məzmununu İlham Əliyev müəyyən edir.

Ardı 5-ci səh.

# Gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində - idmançı, hərbçi, mütəxəssis



Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa Çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Salaməleyküm, əyləşin.

Bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmişlər, böyük qələbə ilə Vətənə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandalarımız. Beləliklə, həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Avropada birinci olmaq, istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər. Əlbəttə ki, bir daha Azərbaycan güləşçilərimiz bizim güləşimizi təbliğ etmişlər. Çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır.

Bir müddət bundan əvvəl elə bu otaqda gənc güləşçilərlə görüş zamanı onlara bildirmişdim, yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Mən onları da gənclər arasında Avropa çempionatında birinci yerlə bağlı ürəkdən təbrik edərkən demişdim ki, onlar gələcəkdə də bizi sevindirməlidirlər, böyüklər arasındakı yarışlarda çıxış edərkən bu uğurları təkrar etməlidirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq bir daha demək istəyirəm ki, böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır.

Əminəm ki, böyüklər arasında keçirilmiş çempionatda bizim idmançılarımız da eyni fikirlə, eyni duyğu ilə yarışlara çıxırdılar və bu yüksək məsuliyyəti dərk edirdilər. Çünki, doğrudan da, cəmi 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürurdur, həm də böyük məsuliyyətdir. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı.

Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda idman uğurlarımızdır.

Ardı 2-ci səh.

# Şuşada ilk dəfə

## Parlament komitələrinin birgə iclası keçirilib




Aprelin 8-də Şuşa şəhərində ilk dəfə olaraq Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclası keçirilib.

İclası açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, ali qanunvericilik orqanının bu tədbirinin Şuşada baş tutması Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi qələbənin nəticələrindən biridir.

İclasda əvvəlcə Şuşanın, bütövlükdə Qarabağın və digər ərazilərimizin işğaldan azad edilməsi uğrunda həyatlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Milli Məclis Sədrinin birinci müavini diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə elan olunmuş "Şuşa ili" çərçivəsində bir çox tədbirlər keçirilir. Birinci vitse-spiker bu il ərzində parlament komitələrinin iclaslarının Şuşada keçirilməsi ilə bağlı verdiyi qərara görə bütövlükdə iştirakçılar adından Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkür edib. Qeyd edilib ki, hazırda Şuşa şəhərində bir çox dövlət orqanları fəaliyyət göstərir. Qanunvericilik hakimiyyəti orqanının tədbirlərinin burada keçirilməsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacib göstəricilərindən biri kimi mühüm siyasi əhəmiyyət kəsb edir. Vurğulanıb ki, birgə komitə iclasının müstəqil Azərbaycanın dövlət quruculuğunda xüsusi əhəmiyyət kəsb edən 2018-ci ilin Prezident seçkilərinin dördüncü ildönümü ərəfəsində keçirilməsi rəmzi məna daşıyır.

Ardı 4-cü səh.

# Əlaqələndirmə Qərargahında Fransa Şirkətlər Hərəkatı - "MEDEF International" və Fransanın aparıcı şirkətlərinin nümayəndələri ilə görüş keçirilib

Bax: səh. 3



# Kütləvi məzarlıqların sayı artsa da, beynəlxalq təşkilatlar hələ də susurlar

## Qarabağda aşkarlanan insan qalıqları Ermənistanın beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması üçün əsasdır

Qarabağda erməni terrorçuları tərəfindən həm dinc əhalinin, həm də hərbi əsirlərin kütləvi şəkildə qətlə yetirilməsi danılmaz faktdır.

İşğaldan azad edilən torpaqlarımızda aparılan quruculuq işləri zamanı aşkarlanan kütləvi məzarlıqların sayının artması onu deməyə əsas verir ki, ermənilər azərbaycanlılara qarşı yüzlərlə soyqırımı həyata keçiriblər.

Ardı 5-ci səh.

# Yüksək məhsuldarlığın ilkin şərti müasir texnika və texnologiyalardan istifadədir



Bax: səh. 6

# Tovuzun emal sənayesinə xarici investorlar da cəlb olunurlar

**Hazırda Azərbaycanın qarşıya qoyduğu əsas hədəflərdən biri də daxili istehsal hesabına ölkənin ərzaq təhlükəsizliyinə nail olmaqdır. Çünki xüsusən indiki dövrdə etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biri hesab olunur. Bu baxımdan Prezident İlham Əliyevin ölkənin ərzaq təhlükəsizliyi məsələsini daim diqqət mərkəzində saxlaması və bu istiqamətdə davamlı olaraq zəruri tədbirlər həyata keçirməsi başadüşüləndir.**

Bax: səh. 6

# Gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində - idmançı, hərbçi, mütəxəssis

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*







Əminəm ki, Azərbaycan vətəndaşları - həm idmansevərlər, həm də idmanla o qədər də maraqlanmayan vətəndaşlar həmişə idman arenalarında əldə edilmiş qələbələrin xəbəri gələndə sevinirlər. Hamımız sevinirik, çünki sevinirik ki, siz buna nail olmusunuz. Bu, sizin həyatınızda çox əlamətdar və unudulmaz hadisədir. Bu titul - Avropa çempionu, yaxud da ki, gümüş, bürünc mükafatçısı əbədi sizinlə olacaqdır. Həm də biz hamımız sevinirik. Çünki gənc nəsil yetişir, gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində - idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir. Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır.

Güləş, qeyd etdiyim kimi, hər birimiz üçün çox əziz idman növüdür, yəqin ki, Azərbaycanda ən populyar, ən məşhur idman növüdür. Ona görə həm məşqçilər, həm idman federasiyasının nümayəndələri, Gənclər və İdman Nazirliyi bu amili nəzərə alaraq güləşə, əlbəttə ki, xüsusi diqqət verməlidirlər. Əminəm ki, gələcək yarışlarda biz, əlbəttə, birinci sıralarda olacağıq. Gələcək yarışlara gəldikdə isə, iki ildən sonra Yay Olimpiya Oyunları keçiriləcək. Vaxt az qalıb və hesab edirəm ki, nəinki güləş, eyni zamanda bütün idman növlərində lisenziya qazanacaq idmançılar bu əsas yarışa indidən hazırlaşmalıdırlar, düzgün təlim-məşq toplanışları, yarışlar müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq və Yay Olimpiya Oyunlarında da biz bir daha ölkəmizin gücünü, idman gücünü göstərəcəyik. Çünki Olimpiya oyunları, Yay Olimpiya Oyunları bütün idman yarışları arasında, əlbəttə ki, xüsusi yer tutur, fərqlənir. Hesab edirəm ki, bütövlükdə növbəti Olimpiya oyunlarında Azərbaycan çox uğurla çıxış edə bilər. İndidən bir şey deyə bilmərəm, çünki hələ iki il vaxt var, amma gərək bütün səylərimiz məhz bu məqsədə çatmaq üçün hesablansın. Bir məsələ də var ki, artıq biz bu qələbələrə öyrəşirik və necə deyərlər, bu yüksək nəticələri saxlamaq çətin olacaq, idmanda hər şey ola bilər - məğlubiyyət də, qələbə də. Ancaq əminəm, gələcək yarışlarda nəticələrə baxmayaraq əsas odur ki, idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etsinlər, necə ki, bu günə qədər ləyaqətlə təmsil edirlər. Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına da nəzər yetirirdim, baxırdım, görürdüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilmişdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə əl atmışdı, ən çirkin əməllərə. Dinc insanlara qarşı terror əməllərinə əl atmışdır. Bizim şəhərlərimiz, dinc şəhərlərimiz gecə vaxtı ballistik raketlərlə atəşə tutuldu, 100-dən çox dinc insan, onların arasında uşaq, qadın, yaşlı insan bu namərd atəş nəticəsində həlak oldu. Amma mən o vaxt demişdim, hələ müharibə gedə-gedə demişdim ki, biz ermənilərin əməllərini heç vaxt təkrar etməyəcəyik. Biz düşmənə döyüş meydanında cavab verəcəyik. Elə cavab verəcəyik ki, onlar əbədi bu dərsi yadda saxlasınlar. Mən keçirilmiş Avropa çempionatında da eyni xasiyyəti gördüm, Azərbaycan xalqına xas olan xasiyyəti. Ədalət, eyni zamanda mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir. Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik. Bunu görərkən mən bir daha əmin oldum ki, Azərbaycan xalqının gələcəyi bundan sonra da çox parlaq olacaq, bundan sonra da istənilən idman növündə. Misal üçün, biz indi bunu futbol yarışlarında da gördük. Bizim məşhur məşqçimiz Qurban Qurbanov çox ləyaqətli hərəkət etmişdir və qol sayıla biləcək vəziyyətdə demişdir ki, yox, bu, bizə lazım deyil, bizə saxta nailiyyət lazım deyil, qazanılmamış uğur lazım deyil. Nəyi qazanmışıqsa, öz əməyimizlə qazanmışıq. O cümlədən Qarabağ məsələsini də öz əməyimizlə, gücümüzlə, zəkamızla həll etmişik. İdman yarışlarında, yəni feyr-pley anlayışı unudulmamalıdır və Azərbaycan idmançıları bu prinsiplərə həmişə əməl etməlidirlər. Çünki bu, qələbədən də vacibdir. Çünki bilirsiniz, qələbə, əlbəttə, hər bir idmançı üçün çox önəmlidir, onun həyatında, necə deyərlər, böyük iz buraxır. Ancaq qələbədən daha vacib ləyaqətdir və biz müharibəni ləyaqətlə aparmışıq. Bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır. İdmanda da elə olmalıdır, elədir və bu halal qələbəni siz öz istedadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda bir daha xalqımızın böyüklüyünü göstərmisiniz. Həm qələbə münasibətilə, həm ləyaqətli davranış münasibətilə sizi təbrik edirəm. Əlbəttə ki, biz hamımız, bütün Azərbaycan xalqı sizdən yeni qələbələr gözləyir. Sağ olun.

* * *

Sərbəst güləş üzrə Azərbaycan milli komandasının baş məşqçisi **Namiq ABDULLAYEV** dedi:

- Hörmətli Prezident, əvvəlcə bizi növbəti dəfə dəvət etdiyiniz və bizimlə yenidən görüşdüyünüz üçün Sizə həm Azərbaycan Güləş Federasiyası, həm məşqçilər və idmançılar, həm də bütün güləş ailəsi adından dərin təşəkkürümüzü bildirirəm. Bildiyiniz kimi, güləş üzrə milli komandalarımız son bir ayda iki Avropa çempionatında ölkəmizi uğurla təmsil ediblər. Bolqarıstanda keçirilən 23 yaşadək güləşçilərin Avropa Çempionatının ardınca Macarıstanda keçirilən böyüklərin Avropa çempionatında da yüksək nəticələr qazanılıb. Komandalarımız ümumilikdə 3 qızıl, 6 gümüş və 7 bürünc medal qazanıb. Həm sərbəst, həm də yunan-Roma güləşi üzrə milli komandalarımız komanda hesabında Avropa çempionu olub. İki komandamızın eyni vaxtda Avropa çempionu olması güləş tariximizdə yeni rekorddur. 23 yaşadək güləşçilərin Avropa çempionatından sonra bizi qəbul etməyiniz güləşçilərimiz üçün böyük stimul oldu. Bunun da nəticəsi olaraq böyüklərin Avropa çempionatında yüksək nəticə qazana bildik. Qarşıda bizi mötəbər yarışlar gözləyir. Bu il İslam Həmrəyliyi Oyunlarında, dünya çempionatında və dünya kubokunda ölkəmizi uğurla təmsil etmək üçün əlimizdən gələni edəcəyik.

Möhtərəm Prezident, bizi qəbul edib daim bizə diqqət və qayğı göstərdiyiniz üçün Sizə bütün güləş ailəsi adından bir daha təşəkkürümüzü bildirirəm. Diqqətinizə görə sağ olun.

**Prezident İlham ƏLİYEV:**
- Sağ olun.

* * *

Sərbəst güləş üzrə üçqat dünya çempionu, ikiqat Olimpiya mükafatçısı **Hacı ƏLİYEV** dedi:

- Cənab Prezident, mən də öz adımdan, həm də sərbəst güləş yığma komandasının adından bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Bildiyiniz kimi, Macarıstanda keçirilən Avropa Çempionatında sərbəst güləşçilərimiz uğurlu nəticələr əldə etdilər. Ümumilikdə 7 medal qazandıq, bunlardan 1-i qızıl, 4-ü gümüş, 2-si isə bürünc medal oldu və biz medal sayına görə komanda hesabında birinci olduq. Sözsüz ki, bu uğurlarımız, bu qələbələrimiz Sizin idmana diqqət və qayğınızın nəticəsidir ki, bu gün belə gözəl nailiyyətlər qazandıq. Eyni zamanda biz Güləş Federasiyasının da diqqət və qayğısını hər zaman hiss etmişik. Biz belə diqqət və qayğı sayəsində çalışacağıq ki, hər zaman gözəl nəticələr əldə edək.

Cənab Prezident, mənim əsas hədəflərimdən biri Parisdə keçiriləcək Olimpiya Oyunlarında iştirak etmək, qızıl medal qazanmaqdır. Siz bilirsiniz ki, mən iki dəfə Olimpiya oyunlarında medal qazanmışam - bir gümüş, bir bürünc. Artıq mənə elə gəlir ki, qızıl medal qazanmağın vaxtıdır. Mən inanıram ki, Parisdə keçiriləcək Olimpiya Oyunlarında bizim gənc güləşçilərimiz də, burada olan güləşçilərimiz də yaxşı nəticələr qazanacaqlar İnşallah və medallarımızın sayını daha da çoxaldacaqlar. Sizə gələcək işlərinizdə uğurlar arzu edirəm, Allahdan Sizə uzun ömür, cansağlığı arzulayıram. Çox sağ olun diqqətinizə görə.

**Prezident İlham ƏLİYEV:**
- Sağ ol, sağ ol Hacı, əyləş. Mən hesab edirəm ki, sən artıq Olimpiya oyunlarının qızıl medalını qazanmısan. Çünki sən üçqat dünya çempionusan və dünya çempionatı da Olimpiya oyunları ilə eyni səviyyəli yarışdır. Bəlkə də Olimpiya oyunları daha həyəcanlı bir yarışdır, çünki 4 ildən bir keçirilir və bütün dünya ictimaiyyətinin diqqəti oradadır. Amma təmsilçilik baxımından və rəqabət baxımından dünya çempionatları ondan geri qalmır. Ona görə sənin üç qızıl medalın var, dünya çempionu kimi. İndi təvazökar insan kimi bir medal taxmısan, amma sənin medalların nə qədərdir, bəlkə özün də sayını itirmisən. Yadındadır, nə qədər medalın var sənin?

**Hacı ƏLİYEV:** - Çoxdur.

**Prezident İlham ƏLİYEV:**
- İndi üç dünya çempionu medalı, ondan sonra Olimpiya, üç dəfə Avropa çempionu. Ona görə sən bütün medalları taxsan, sinəndə yer qalmaz. Biz hər bir idmançıdan qələbə gözləyirik. Amma əsas odur ki, yarışda iştirak edəcəksən. Mən bilirəm ki, sən son Olimpiya oyunlarında bir az tərəddüd edirdin, gələcək fəaliyyətinlə bağlı. Amma yaxşı ki, qalmısan idmanda. Sən lazımsan həm idmana, həm gənclərə və doğrudan da, gənclər üçün, gənc idmançılar üçün bir nümunəsən. Çünki üçqat dünya çempionu olmaq, doğrudan da, tarixi nailiyyətdir. Ona görə səni bir daha təbrik edirəm.

* * *

Yunan-Roma güləşi üzrə ikiqat Avropa çempionu və dünya çempionu **Eldəniz ƏZİZLİ** dedi:

- Möhtərəm Prezident, mən də yunan-Roma güləşi milli komandası adından bizim qazandığımız qələbələri yüksək qiymətləndirdiyiniz üçün Sizə öz minnətdarlığımızı bildirirəm. Bildiyiniz kimi, Budapeştdə keçirilən Avropa Çempionatında yarışa qatılan 10 idmançımızdan 8-i medalla Vətənə qayıtdı. İki qızıl medal, bir gümüş və beş bürünc medalla ümumilikdə 165 xal toplayaraq yunan-Roma güləşi tarixində yeni bir rekorda imza atdıq. İlk dəfə idi ki, yunan-Roma güləşi üzrə millimiz komanda hesabında Avropa çempionu oldu. Həqiqətən də, bu yarış bizim üçün rekordlarla əlamətdar bir yarış oldu.

Cənab Prezident, Sizin idmana və idmançılara göstərdiyiniz diqqət və qayğı bizi həvəsləndirir, gələcək yarışlara daha da ruhlandırır. Bildiyiniz kimi, noyabrın 5-6-da Bakıda yunan-Roma güləşi üzrə dünya kuboku keçiriləcək. Biz ilk dəfə 2015-ci ildə İran İslam Respublikasının Tehran şəhərində dünya kubokunun sahibi olmuşduq. Artıq son qələbəmizdən 7 il keçir. Düşünürəm ki, İnşallah, biz idmançılar əlimizdən gələni etməyə çalışıb 7 ildən sonra qazandığımız parlaq qələbəni Bakıda təkrarlayacağıq və var gücümüzlə çalışacağıq ki, kubok Bakıda qalsın, Bakıdan qırağa getməsin. Bizi qəbul etdiyiniz üçün bir daha Sizə öz minnətdarlığımızı bildiririk. Diqqətiniz üçün sağ olun.

**Prezident İlham ƏLİYEV:**
- Sağ ol, çox sağ ol. Eldəniz də bizim görkəmli idmançılarımızdandır, ikiqat dünya çempionu, Avropa çempionu. Ona görə əminəm ki, gələcəkdə də bizi sevindirəcək.

* * *

Yunan-Roma güləşi üzrə Azərbaycan milli komandasının baş məşqçisi **Aleksandr TARAKANOV** dedi:

- Hörmətli Prezident, mənim işimi yüksək qiymətləndirdiyinizə və məni "Tərəqqi" medalı ilə təltif etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. İlham Heydər oğlu, bu medalda Sizin qəlbinizin bir hissəsi də var. Siz idman üçün, gənclər üçün nə lazımdırsa edirsiniz ki, biz çalışaq, cəhd göstərək, qalib gələk və ölkəmizi şöhrətləndirək. Sağ olun. Sizə möhkəm cansağlığı arzu edirəm.

**Prezident İlham ƏLİYEV:**
- Sağ olun. Medalınız mübarəkdir. Siz onu öz işinizlə, bizim hamımızı sevindirən nəticələrlə qazanmısınız. Hamınıza yeni qələbələr, yeni uğurlar arzu edirəm. Sağ olun.

# Azərbaycan-İsrail əlaqələri sıx dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır

### İsrail Dövlətinin Prezidenti zati-aliləri cənab İsxak Hersoqa

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Sizi və dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırıram.

Azərbaycan-İsrail əlaqələri xalqlarımız arasında tarixən mövcud olmuş sıx dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən 30 ildə siyasi, iqtisadi, hərbi-texniki, səhiyyə, mədəni və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf etmiş, dostluq əlaqələrimiz daha da möhkəmlənmişdir.

Azərbaycanda əsrlərdən bəri mehribanlıq, əmin-amanlıq və harmoniya şəraitində yaşayan yəhudi icması, həm İsraildə, həm də dünyanın digər ölkələrində məskunlaşmış yəhudiəsilli həmvətənlərimiz dövlətlərarası münasibətlərimizin möhkəmlənməsinə öz töhfələrini verməkdədirlər.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın inkişafı və əhatə dairəsinin genişlənməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, bir-birinə böyük rəğbət bəsləyən xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə ənənəvi dostluq əlaqələrimizin, səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail ola bilərik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İsrail xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2022-ci il*

# İsrail və Azərbaycan arasında ikitərəfli münasibətlərdən və əlaqələrdən məmnunuq

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

İcazə verin, İsrail Dövləti və xalqı adından bu əlamətdar gün - ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Sizi təbrik edim.

Bu ildönümü İsrail Dövləti və Azərbaycan Respublikası arasında yaxşı ikitərəfli münasibətlərdən, o cümlədən siyasi, iqtisadi, mədəni və bir çox müxtəlif sahələrdə mövcud olan əməkdaşlıq əlaqələrindən məmnunluğumuzu bildirmək üçün gözəl fürsətdir. Münasibətlərimizin yenilənməsi ilə əlamətdar olan bu hadisə mənim üçün xüsusilə əzizdir, belə ki, İsrailin mərhum 6-cı Prezidenti, mənim atam Haim Hersoq həmin vaxtı dövlət başçısı idi.

İkitərəfli münasibətlərimiz üçün çox əhəmiyyətli olan bu ildönümünü qeyd etdiyimiz vaxtda ümidvaram ki, Azərbaycanın İsraildə səfirliyinin açılması kimi yeni əlamətdar hadisənin şahidi olacağıq. Bunun ticarət və turizm nümayəndəliyinin açılışından sonra baş tutması isə təbii bir addım olacaq və bu, ölkələrimiz arasında sıx, strateji əlaqələrin olmasının təsdiqidir.

Mən Azərbaycanın yeni səfirliyinin açılışında birgə iştirak etməyimiz üçün qarşıdakı ildə zati-alinizi bir daha ölkəmizə səfərə dəvət etmək istərdim. Həmçinin Sizi və Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik etməkdən böyük məmnunluq hissi duyuram.

Qoy bu münasibətlərimiz gələcəkdə daha da genişlənsin və dərinləşsin.

*Hörmətlə,*

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

# Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarına və onların ailə üzvlərinə ayrılmış mənzillərin özəlləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 146.4-cü maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 avqust tarixli 2871 nömrəli Sərəncamının 1.1-ci bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə, eləcə də ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvlərinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ayrılmış mənzillər (bundan sonra - mənzillər) əvəzsiz olaraq həmin mənzilin ayrıldığı şəxslərin mülkiyyətinə verilməklə özəlləşdirilir;

1.2. mənzillərin özəlləşdirilməsi bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan şəxslərin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciəti əsasında bu Fərmanın 4.1-ci bəndi nəzərə alınmaqla həyata keçirilir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. bu Fərmanın 1.2-ci bəndi nəzərə alınmaqla bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan şəxslərin mənzillər üzərində mülkiyyət hüququnun "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını və mənzillər üzərində mülkiyyət hüququna dair çıxarışın və daşınmaz əmlaka dair texniki pasportun verilməsini təmin etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 avqust tarixli 2871 nömrəli Sərəncamına uyğun olaraq mənzil ayrılmış şəxslərin siyahısını (hər bir şəxsə ayrılmış mənzilə dair məlumatlar dəqiq göstərilməklə) və mənzilin ayrılmasına dair müvafiq təsdiqedici sənədin surətini bir ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2022-ci il*

# Əlaqələndirmə Qərargahında Fransa Şirkətlər Hərəkatı - “MEDEF International” və Fransanın aparıcı şirkətlərinin nümayəndələri ilə görüş keçirilib

Aprelin 8-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Fransa Şirkətlər Hərəkatı - “MEDEF International” təşkilatının baş icraçı direktoru Filip Qotye və aparıcı fransız şirkətlərinin nümayəndələri ilə görüşüb.





AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Fransa arasında səmərəli əməkdaşlığın formalaşdığı qeyd olunub. Fransanın aparıcı şirkətlərinin nümayəndələrinin Azərbaycana mütəmadi səfərləri iqtisadi əlaqələrin dərinləşməsinə marağın təzahürü kimi qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə aparılan genişmiqyaslı tikinti-abadlıq və yenidənqurma işlərinin fəal şəkildə davam etdirildiyi, çox qısa vaxt ərzində və daxili maliyyə imkanları hesabına əhəmiyyətli nəticələr əldə olunduğu vurğulanıb. Postmüharibə dövründə bərpa və yenidənqurma işlərinin sürətinə və əhatəsinə görə Azərbaycanın dünyada qabaqcıl təcrübənin əsasını qoyduğu bildirilib.

Fransanın görüşdə iştirak edən “Airbus”, “Alstom”, “Suez”, “Thales”, “Egis”, “Oberthur Cash Protection”, “Arverne Group” və digər qabaqcıl şirkətlərinin nümayəndələri tərəfindən Azərbaycan və Fransa arasında iqtisadi əlaqələrin dərinləşməsinə, yeni sahələr əhatə olunmaqla əməkdaşlığın genişlənməsinə maraq ifadə edilib. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma layihələrində Fransanın işgüzar dairələrinin iştirak etmək niyyəti diqqətə çatdırılıb.

## Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri telefonla danışıblar




Aprelin 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədə mövcud olan son vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası üzrə fikir mübadiləsi aparıblar.

Tərəflər Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələləri və bu xüsusda Brüsseldə keçirilmiş yüksəksəviyyəli görüşü müzakirə ediblər.

Telefon danışığı zamanı həmçinin Ukraynada və onun ətrafındakı vəziyyət, çoxtərəfli platformalarda əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə mövzusu olub.

## Azərbaycanın və Rusiyanın XİN rəhbərlərinin telefon danışığı olub




Aprelin 8-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər bölgədə mövcud olan hazırkı vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri üzrə geniş fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı həmçinin Ukraynada və ətrafındakı vəziyyət, habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Ceyhun Bayramov və britaniyalı həmkarı Brüssel görüşünün nəticələrini müzakirə ediblər




Aprelin 8-də xarici işlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın xarici işlər, Birlik ölkələri və İnkişaf Ofisində Avropa məsələləri üzrə dövlət naziri Ceyms Kleverli ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər bölgədəki son vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri, eləcə də Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması və bu xüsusda Brüssel görüşünün nəticələrini müzakirə ediblər.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

## Azərbaycan və İsrail arasında qarşılıqlı anlaşmaya əsaslanan əlaqələr mövcuddur









Aprelin 8-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (XİN) Azərbaycan Respublikası və İsrail Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə XİN-in rəhbər heyəti, Milli Məclisin deputatları, İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozov və İsrail Dövlətinin Azərbaycan Respublikasındakı səfirliyinin rəhbərliyi və əməkdaşları, habelə Azərbaycanın yəhudi icmasının üzvləri iştirak ediblər.

Tədbir hər iki ölkənin dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov 1992-ci il aprelin 7-də iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının tariximizdə əlamətdar hadisə olduğunu bildirib. İsrailin Azərbaycan Respublikası ilə diplomatik münasibətlər quran ilk ölkələrdən biri olduğunu qeyd edən nazir Ceyhun Bayramov bunu əsl dostluq və həmrəylik nümunəsi kimi dəyərləndirib. Tarixən etnik-dini zənginliyi, tolerant və multikultural dəyərləri ilə seçilən Azərbaycanda heç vaxt antisemitizmin olmadığını bildirən nazir Ceyhun Bayramov ölkələrimiz arasında hər zaman insani dəyərlər, milli-dini tolerantlıq və qarşılıqlı anlaşmaya əsaslanan əlaqələrin mövcudluğunu qeyd edib. İqtisadiyyat, turizm, ticarət, enerji, təhsil və digər sahələrdə iki ölkə arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsi üçün şəraitin olduğunu bildirən nazir Ceyhun Bayramov həmçinin bu gün beynəlxalq təşkilatlar çərçivəsində də iki ölkə arasında səmərəli əməkdaşlığın mövcudluğunu məmnunluqla qeyd edib.

Daha sonra çıxış edən İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozov 30 il ərzində Azərbaycan və İsrail arasındakı münasibətlərin inkişafında bir çox nailiyyətlərin əldə olunduğunu qeyd edib. Müxtəlif sahələr üzrə inkişaf edən çoxşaxəli ikitərəfli münasibətlərin mövcudluğunu məmnunluqla qeyd edən Yoel Razvozov Bakıda keçirdiyi görüşlərdən sonra iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün imkanların olduğunu bildirib. İsrail və Azərbaycan arasındakı münasibətlərin dostluq və qarşılıqlı anlaşmaya əsaslandığını ifadə edən Yoel Razvozov İsraildə Azərbaycanın ticarət və turizm nümayəndəliklərinin açılmasının iki ölkə arasında birgə iqtisadi layihələrin həyata keçirilməsi və turizm sahəsində əlaqələrin genişləndirilməsi baxımından önəmli addım olduğunu vurğulayıb. Yəhudi icmasının Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini qeyd edən Y. Razvozov Azərbaycanın bu baxımdan nümunəvi ölkə olduğunu bildirib.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və İsrail arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

## Azərbaycanla İsrail arasında dostluq münasibətləri genişlənir



Aprelin 8-də xarici işlər naziri Ceyhun Bayramov İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, israilli naziri salamlayan Ceyhun Bayramov əvvəlcə aprelin 7-də Təl-Əvivdə baş vermiş terror aktı ilə bağlı başsağlığını çatdırıb, terrordan əziyyət çəkən ölkə kimi Azərbaycanın terrorçuluğun bütün forma və təzahürlərini qətiyyətlə qınadığını bildirib.

Nazir Azərbaycanın İsrail ilə münasibətlərin inkişafına önəm verdiyini qeyd edərək, İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və turizm mərkəzinin açılmasının bu xüsusda əhəmiyyətini vurğulayıb. İki ölkə arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoqu məmnunluqla qeyd edən nazir qarşılıqlı səfərlərin əlaqələrin daha da inkişafına müsbət təkan verdiyini bildirib.

Ceyhun Bayramov aprelin 7-də Azərbaycan ilə İsrail arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğuna diqqət çəkərək, bu xüsusda təbriklərini və xoş arzularını qarşı tərəflə bölüşüb.

İsrail Dövlətinin turizm naziri Yoel Razvozov Azərbaycana səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşləri, xüsusilə də dövlətimizin başçısı ilə aparılan müzakirələri, eləcə də digər ikitərəfli təmasları məmnunluqla qeyd edib. İki ölkə arasında son 30 ildə bir çox istiqamətlərdə inkişaf edən dostluq və əməkdaşlıq münasibətlərini, bu əlaqələrin daha da genişlənməsi potensialını vurğulayıb. Nazir Razvozov İsrailin Azərbaycanın ərazi bütövlüyünə hər zaman olan dəstəyini bir daha ifadə edib.

Tərəflər iki ölkə arasında münasibətlərin bir sıra sahələrdə, o cümlədən energetika, təhsil, yüksək texnologiyalar, hərbi-texniki, turizm və digər istiqamətlərdə inkişafı perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramova qarşı tərəfə bölgədə mövcud olan postmünaqişə vəziyyəti, o cümlədən ərazilərin minalardan təmizlənməsi, bərpa və yenidənqurma işləri barədə məlumat verib, İsrail şirkətlərinin bu prosesdə iştirakını məmnunluqla vurğulayıb.

Görüş zamanı qarşılıqlı səfərlərin davamlılığının, habelə iki ölkə XİN-ləri arasında siyasi məsləhətləşmələrin davamlı həyata keçirilməsinin vacibliyi qeyd edilib.

Görüşdən sonra nazir Ceyhun Bayramov və nazir Yoel Razvozov Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş sərgidə iştirak ediblər.

# Azərbaycan Misirlə əməkdaşlığa töhfəsini verməyə hazırdır

Aprelin 8-də xarici işlər naziri Ceyhun Bayramov Misir Ərəb Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri ilə görüşüb.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, səfir Hişam Mohamed Nağı Abdel Həmid etimadnaməsinin surətini nazirə təqdim edib.

Nazir Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb. Azərbaycanda diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında mövcud olan dost münasibətlərin inkişafına öz töhfəsini vermək üçün səylərini əsirgəməyəcəyinə əminliyini ifadə edən nazir Ceyhun Bayramov Azərbaycan tərəfinin də bu əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu deyib.

Ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə edən səfir Hişam Mohamed Nağı Abdel Həmid Azərbaycan ilə Misir arasında bir sıra, o cümlədən iqtisadiyyat, turizm və sair sahələrdə əməkdaşlığın uğurla həyata keçirildiyini söyləyib. O, mövcud münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Azərbaycan və Misir arasında tarixi və ənənəvi dostluq əlaqələrinin inkişafı, iqtisadiyyat, elm-təhsil, enerji, turizm, hava nəqliyyatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb. İki ölkənin beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində sıx əməkdaşlığı məmnunluqla vurğulanıb və bu əməkdaşlığın gələcəkdə genişləndirilməsinin vacibliyi qeyd edilib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədə mövcud olan münaqişə sonrası vəziyyət, üçtərəfli bəyanatların icrası və bu xüsusda Azərbaycan tərəfindən atılan addımlar, habelə azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə və yenidən quruculuq işləri ilə bağlı məlumat verib. Nazir həmçinin bölgənin gələcək sülh və əmin-amanlıq çərçivəsində inkişafı ilə bağlı Azərbaycanın baxışlarını həmsöhbəti ilə bölüşüb.

Səfir Hişam Mohamed Nağı Abdel Həmid Misirin Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəklədiyini xatırladaraq, Azərbaycana həyata keçirdiyi bərpa və quruculuq işlərində uğurlar arzu edib və bu xüsusda səfir azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq layihələrinə Misir şirkətlərinin maraq göstərdiyini bildirib.

Görüş zamanı səfir Hişam Mohamed Nağı Abdel Həmid iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə Misir rəhbərliyi adından təbrik məktublarını nazir Ceyhun Bayramova təqdim edib.

İki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin davam etdirilməsinə dair qarşılıqlı razılıq ifadə olunub.

# Şuşada ilk dəfə




## Parlament komitələrinin birgə iclası keçirilib

*Əvvəli 1-ci səh.*

4 il bundan əvvəl Azərbaycan xalqı yenidən öz tarixi seçimini etdi, cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildi və bu seçim həm də Qarabağın işğaldan azad olunmasına gətirib çıxardı.

Bildirilib ki, Şuşanın və işğal altında olmuş digər ərazilərimizin azad olunması Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu idi və bu, reallaşdığı üçün onun ruhu şaddır.

Sonra komitələrin ilk dəfə olaraq azad Şuşada keçirilən iclasının gündəliyindəki məsələlər müzakirə olunub. Qeyd edilib ki, gündəlikdə iki məsələ var.

İclasda çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov diqqətə çatdırıb ki, qalib xalqın parlamentariləri kimi Şuşada iclas keçirmək böyük şərəfdir. Z.Əsgərov Prezident İlham Əliyevin xeyir-duası ilə keçirilən bu iclasa və onun təşkilinə görə parlamentin rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Qafqaz Qartalı" Xüsusi Təyinatlı Qüvvələrin təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında gündəliyin birinci məsələsini təqdim edən Ziyafət Əsgərov bildirib ki, ölkəmiz NATO-nun Şərq Tərəfdaşlığı proqramında fəal iştirak edir. İndiyədək bu üç ölkə arasında dəfələrlə bu çərçivədə təlimlər keçirilib. Bu anlaşma memorandumu da həmin əməkdaşlığa əsasən müzakirəyə çıxarılıb. Sənəd 2019-cu il oktyabrın 10-da Bakı şəhərində imzalanıb.

İclasda çıxış edən Milli Məclisin İntizam Komissiyasının sədri Eldar İbrahimov da azad Şuşada olmaqdan şərəf duyduğunu bildirib. O, bu tədbirin böyük siyasi əhəmiyyətini qeyd edib, Şuşada və işğaldan azad olunmuş digər ərazilərimizdə aparılan sürətli bərpa və quruculuq işlərindən danışıb. Komissiya sədri tezliklə Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanacağına inamını da ifadə edib.

İclasda çıxış edən Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Elman Məmmədov, Aqil Abbas, Hikmət Məmmədov, Arzu Nağıyev, Aydın Mirzəzadə, Elşad Mirbəşir oğlu, Elşən Musayev, Azay Quliyev, Fəzail Ağamalı, Erkin Qədirli, Bəhruz Məhərrəmov, Vüqar İsgəndərov, Nizami Səfərov, Tahir Kərimli, Əminə Ağazadə və Cəbi Quliyev komitələrin birgə iclasının azad Şuşada keçirilməsini tarixi hadisə kimi qiymətləndiriblər. Qeyd olunub ki, Azərbaycan parlamentinin tarixində ilk dəfədir ki, komitə iclasları Qafqazın incisi adlandırılan Şuşa şəhərində keçirilir və bu, çox qürurverici hadisədir. Bildirilib ki, ərazilərimizin işğaldan azad olunması Prezident İlham Əliyevin hərbi-siyasi iradəsinin uğurla həyata keçirilməsinin nəticəsidir və bununla Azərbaycan həm beynəlxalq hüququn müddəalarını həyata keçirib, həm də öz ərazi bütövlüyünü bərpa edib.

Layihə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Sonra iclasın gündəliyindəki ikinci məsələ - Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Layihə barədə məlumat verən Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid bildirib ki, təklif olunan dəyişiklik ölkəmizdə xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinin səmərəliliyini artırmaq məqsədi daşıyır. Belə ki, Cinayət Məcəlləsinin 208-ci maddəsinin 1-ci hissəsinin yeni redaksiyada verilməsi təklif olunur. Yeni redaksiyada deyilir ki, "Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvəkkil edilmiş bankının hesabına məcburi qaydada köçürülməli olan xeyli miqdarda xarici valyuta vəsaitlərini xaricdən qaytarmama - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Komitə sədri Ziyafət Əsgərovun, deputat Erkin Qədirlinin fikirləri dinlənildikdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Bununla da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin Şuşada keçirilən birgə iclası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Macarıstan Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verir



"Ötən 30 illik dövrdə Azərbaycan-Macarıstan əlaqələri iki ölkənin dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İki ölkə arasında imzalanan ümumilikdə 50 sənəd əməkdaşlıq sahələrinin mütəmadi genişlənməsinə imkan verib".

AZƏRTAC xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycan və Macarıstan Hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi ilə əlaqədar Beynəlxalq Muğam Mərkəzində təşkil olunan tədbirdə bildirib.

Nazir Azərbaycan və Macarıstan arasında ticarət dövriyyəsində müsbət dinamikanı, iqtisadi münasibətlərin inkişafında Birgə Hökumətlərarası Komissiyanın xüsusi rolunu qeyd edib. 2005-2021-ci illərdə Bakı və Budapeştdə 10-dan çox biznes-forum, işgüzar görüş və digər tədbirlərin, həmçinin bu ilin fevral ayında Bakıda Birgə Komissiyanın 8-ci iclası və biznes-forumun keçirildiyini, 2019-cu ildə Budapeştdə Azərbaycan Evinin açıldığını bildirib.

S.Babayev erməni işğalından azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərinə macar şirkətlərinin də qoşulmaq istəyinin məmnunluq doğurduğunu deyib. Macar biznes dairələrinin Ələt Azad İqtisadi Zonasında reallaşacaq layihələrdə iştirak etməkdə maraqlı ola biləcəyini qeyd edib. Bildirib ki, elm və təhsil sahəsində iki ölkənin əlaqələri də sürətlə inkişaf edir.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli Azərbaycan-Macarıstan əlaqələrinin iki ölkənin parlamentləri arasında da yüksək səviyyədə özünü göstərdiyini vurğulayıb. O, qarşılıqlı səfərlərin həyata keçirildiyini, parlamentlərin komitələri arasında sıx əlaqələrin olduğunu qeyd edib.

Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Viktor Szederkenyi ölkəsinin Azərbaycanla əlaqələrinin inkişafına xüsusi önəm verdiyini, hazırda strateji əməkdaşlıq səviyyəsində olan bu münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə ümidvar olduğunu vurğulayıb.

Tədbirin sonunda Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

## Kəlbəcər və Laçında xidməti-döyüş fəaliyyətləri yoxlanılıb







Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun yüksək dağlıq ərazilərdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti dövlət sərhədinin Kəlbəcər və Laçın rayonu sahəsində yerləşən bir sıra döyüş mövqelərinə baxış keçirib, burada xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb. Qeyd olunub ki, döyüş növbətçiliyinin gecə və gündüz keyfiyyətli təşkili və aparılması üçün hər cür şərait mövcuddur. Müşahidə məntəqələri müasir texniki avadanlıqlarla təchiz olunub.

General-polkovnik Z.Həsənov şəxsi heyətlə görüşərək onların qayğıları ilə maraqlanıb, xidmətlərində uğurlar arzulayıb. Hərbi qulluqçular dövlət sərhədində xidmət etməkdən qürur duyduqlarını və burada yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Müdafiə naziri döyüş növbətçiliyinin təşkili və qoşunların döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Sonra nazir Kəlbəcər və Laçın rayonlarında yeni istifadəyə verilmiş hərbi obyektlərə baxış keçirib. Məruzə olunub ki, müasir tələblər nəzərə alınmaqla yeni inşa edilmiş hərbi infrastrukturlarda şəxsi heyət üçün lazımi şərait yaradılıb. Binalar bütün zəruri ehtiyacları təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarlarla təchiz edilib. Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı və ərazini fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar mövcuddur.

Daha sonra nazirliyin rəhbər heyəti hərbi hissələrin parkında texnikaların saxlanma şəraiti, istismarı və göstərilən texniki xidmətin keyfiyyəti ilə maraqlanıb. Texniki xidmət və təmir məntəqələrində yaradılan şəraitlə tanış olan müdafiə nazirinə bildirilib ki, müasir avadanlıqlarla təchiz olunan məntəqələrdə döyüş texnikaları və avtomobillərə texniki xidmətin göstərilməsi üçün hər cür şərait yaradılıb. Bu məntəqələrdə döyüş texnikası və nəqliyyat vasitələrinə planlı şəkildə mövsümi qulluğun göstərilməsi nəzərdə tutulub. General-polkovnik Z.Həsənov məntəqələrdə görüləcək işlər zamanı şəxsi heyətin təhlükəsizlik qaydalarına tam əməl etməsi, eləcə də digər vacib məsələlərlə bağlı tapşırıqlarını çatdırıb.

Sonda Kəlbəcər və Laçın rayonlarında tikintisi davam edən bir neçə hərbi obyektdə aparılan inşaat işlərinin gedişatını yoxlayan nazir tikinti işlərinin keyfiyyətli aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

## Sabirabadda şəhid və qazi ailələri ziyarət edilib

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev vətəndaşların qəbulu ilə əlaqədar Sabirabad rayonuna səfəri çərçivəsində şəhid və qazi ailələrini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, nazir şəhid Asim Əliyevin ailə üzvləri ilə görüşüb. Görüşdə şəhidlə bağlı xatirələrdən, onun Vətən müharibəsində göstərdiyi şücaətdən danışılıb.

Rəşad Nəbiyev həmçinin qazi Tural Qəhrəmanovun evində qonaq olub.

Nazir şəhid və qazi ailələrinin qayğıları ilə yaxından maraqlanıb.



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən hər iki ailəyə hədiyyələr təqdim edilib.

## Sabirabad rayonunda zona müşavirəsi olub

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev nazirliyin Sabirabad, Saatlı və İmişli rayonlarında yerləşən tabeli qurumlarının rəhbər şəxsləri ilə zona müşavirəsi keçirib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müşavirədə mövcud duruma, islahatlara, çatışmazlıqlara və vətəndaş müraciətlərinə dair müzakirələr aparılıb.

Vətəndaş məmnunluğunun təmin edilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verilib.

## Azərbaycanın özünü və tərəfdaşlarını uzun müddət təmin edə biləcək qaz resursları var

Energetika naziri Pərviz Şahbazov ilə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin nümayəndələri və "ENGIE" şirkətinin vitse-prezidenti, "Eurogas" Beynəlxalq Assosiasiyasının prezidenti Didier Holleaux arasında görüş keçirilib.




Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə qlobal enerji gündəliyində olan məsələlər, "Cənub qaz dəhlizi"nin genişləndirilməsi və "yaşıl enerji"nin Avropaya ixracı imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Energetika naziri Pərviz Şahbazov "Cənub qaz dəhlizi" ilə Azərbaycan qazının Avropa ölkələrinə ixrac olunan həcmləri, eləcə də TANAP və TAP layihələrinin ötürücülük gücünün artırılması perspektivləri barədə məlumat verərək, layihənin genişləndirilməsini təmin edəcək məsələlərlə bağlı fikirlərini diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycanın özünü və tərəfdaşlarını uzun müddət təmin edə biləcək qaz resursları var. Bu resursların hasil edilərək mövcud infrastrukturun təkmilləşdirilməsilə ixracı üçün çoxtərəfli əməkdaşlıq və birgə səylər əsasında əməli addımlar atılmalıdır.

Eyni zamanda qeyd olunub ki, hazırda həyata keçirilən 470 meqavatlıq külək və günəş-elektrik stansiyalarının istismara verilməsi ilə ildə qənaət ediləcək 330 milyon kubmetr təbii qaz, həmçinin Xəzər dənizinin külək enerjisinin 2036-cı ilədək reallaşdırılması nəzərdə tutulan 7,2 GVt-lıq potensialı hesabına "yaşıl enerji" də Avropa ölkələrinə ixrac edilə bilər.

Söhbət zamanı Fransa ilə qaz sektorunda uzunmüddətli əməkdaşlığın bərpa olunan enerji sahəsində də davam etdirilməsi üçün böyük potensialın olduğu vurğulanıb. Həmçinin Azərbaycanın regional enerji əməkdaşlığında iştirakından irəli gələn məsələlər nəzərdən keçirilib.

## Əlahiddə Ümumqoşun Orduda istismarda olan avtomobil texnikaları yoxlanılıb

Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri arasında təşkil olunan baxış-müsabiqədə hərbi avtomobil texnikalarının saz vəziyyətdə saxlanmasına, təlimata uyğun istifadə və istismarına xüsusi diqqət yetirilib.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, müsabiqə zamanı istismarda olan hər növdə avtomobil texnikalarına gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığı yoxlanılıb.

Müsabiqəyə müxtəlif markalı və təyinatlı minik avtomobilləri, mikroavtobus və avtobuslarla yanaşı, səhra şəraitində əsgərlərin yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğuları, səyyar soyuducular, səyyar tipli çörək zavodları, su çənləri və səhra mətbəxləri də cəlb edilib.

Ən yaxşı nəticəni göstərən hərbi hissələr baxış-müsabiqəsinin sonunda keçici nişanla mükafatlandırılıb.

# Azərbaycan Respublikası Prokurorluğunun beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirilir

Aprelin 7-də və 8-də İtaliyanın Sirakuza şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 53-cü iclası keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hibrid formatda keçirilmiş tədbirdə ölkəmizi Azərbaycan Respublikasının baş prokuroru, assosiasiyanın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Tədbirdə videokonfrans vasitəsilə iştirak edən baş prokuror Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər və əldə olunmus? uğurlu nəticələr barədə ətraflı məlumat verib.

Görüşdə prokurorların fəaliyyətinin təkmilləşdirilməsinə dair bir sıra təşkilati məsələlər, o cümlədən prokurorluq orqanları əməkdaşlarının cinayətkarlığa qarşı mübarizə sahəsində biliklərinin artırılması və formalaşmış əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə Assosiasiyanın Qlobal Təhsil Akademiyası və Prokurorların Mübadilə Proqramı kimi təşəbbüslərin gələcək perspektivləri və onların inkişafı ilə bağlı təyin olunmuş büdcə məsələləri müzakirə edilib, BPA-nın rəhbər vəzifələrinə seçkilər keçirilib, habelə qurumun illik maliyyə hesabatları dinlənilib.

Azərbaycanın assosiasiyanın təsis olunduğu vaxtdan fəaliyyətinə verdiyi töhfə və səmərəli əməkdaşlıq əlaqələri nəzərə alınaraq ölkəmizin prokurorluq orqanlarından bir nəfər əməkdaşın təşkilatın Katibliyinə 1 il müddətinə ezam olunması müzakirə olunub. Həmçinin tədbirdə əvvəlki iclaslarda ölkəmiz tərəfindən dəstəklənmiş qurumun X Regional Konfransının 2023-cü ildə İstanbul şəhərində, 2024-cü ildə baş tutacaq Assosiasiyanın ümumi yığıncağı və illik konfransının isə Bakı şəhərində keçirilməsi ilə bağlı təşkilati məsələlər müzakirə edilib.

Tədbirdə iştirak etmək üçün İtaliyaya ezam olunmuş baş prokurorun müavini Heydər Məmmədov və prokurorluğun digər əməkdaşları Sirakuza Beynəlxalq İnstitutunun rəhbərliyi, həmçinin BPA-nın Katibliyi və İcraiyyə Komitəsinin üzvləri ilə görüşlər keçirib, əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Ombudsman Ağdaban soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ağdaban soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir.

"Bu gün Ağdaban soyqırımından 30 il ötür. Ermənistanın tarixboyu azərbaycanlılara qarşı yürütmüş olduğu soyqırımı və etnik təmizləmə siyasəti nəticəsində minlərlə günahsız insan qətlə yetirilib, kütləvi qırğınlar törədilib.

Ermənistanın insanlıq əleyhinə yönəlik çoxsaylı cinayətlərindən biri də 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Kəlbəcər rayonunun Ağdaban kəndində törədilib, kənd əhalisinə işgəncələr verilib, insanlar kütləvi şəkildə qətlə yetirilib, ahıllar, uşaqlar və qadınlar diri-diri yandırılıb.

Bununla yanaşı, kənd ərazisində mövcud olmuş və bəşər sivilizasiyasına aid tarixi, mədəni və dini obyektlər dağıdılıb, Azərbaycanın mədəni irsinə aid əsərlər, o cümlədən şair Ağdabanlı Qurbanın və klassik aşıq şeirinin ustadlarından olan Dədə Şəmşirin əlyazmaları məhv edilib. Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Ağdaban kəndində ermənilər tərəfindən soyqırımı cinayəti, habelə mədəni irsə qarşı vandalcasına dağıntılar törədilməsi nəticəsində insan hüquqları sahəsində mövcud olan beynəlxalq sənədlərin tələbləri kobud şəkildə pozulub.

Beynəlxalq təşkilatları və dövlətləri Ağdaban soyqırımını törətmiş cinayətkarların ədalət mühakiməsi qarşısında cəzalandırılması üçün qətiyyətli addımlar atmağa, bu qətliamı soyqırımı və bəşəriyyətə qarşı törədilmiş cinayət aktı kimi tanımağa çağırıram".

Bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların müraciətlərinə, o cümlədən Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına daim xüsusi həssaslıqla yanaşılaraq onların şəhər və rayonlarda mütəmadi qəbulları davam etdirilir.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 8-də ədliyyə naziri Fikrət Məmmədov Ağdam rayonunun Quzanlı qəsəbəsində Ağdam, Ağcabədi və Laçın rayonlarından və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı nazir Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbə nəticəsində torpaqlarımızın işğaldan azad edilməsindən, keçmiş məcburi köçkünlərimizin öz dədə-baba yurdlarına qayıdışı məqsədilə aparılan nəhəng bərpa-quruculuq işlərindən bəhs edib, həmin rayonlardan olan vətəndaşların qayğıları ilə maraqlanıb.

* * *

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Sabirabad rayonunda vətəndaşları qəbul edib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Görüşdə Sabirabadla yanaşı, Saatlı və İmişli rayon sakinlərinin nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətləri dinlənilib.

Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi yerində həllini tapıb.

Nazirliyin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

* * *

Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov aprelin 8-də Salyan şəhərində Salyan və Neftçala rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Qəbuldan əvvəl Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov və Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra ASC-nin sədri Zaur Mikayılov Salyan Suvarma Sistemləri İdarəsinin inzibati binasında Salyan və Neftçala rayonlarından olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib.

Müraciətlər əsasən suvarma suyuna olan tələbatın ödənilməsi, suvarma kanallarının beton üzlüyə alınması, nasos stansiyalarının quraşdırılması, nov kanallarının qurulması, kanalların lildən təmizlənməsi, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Zaur Mikayılov şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev aprelin 8-də Biləsuvar rayonunda vətəndaşları qəbul edib.

Qurumun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əksəriyyəti Biləsuvar, Cəlilabad və Cəbrayıl rayonlarında məcburi köçkün kimi məskunlaşan şəxslər olan qəbulda vətəndaşların müraciətləri dinlənilib. Qəbula gələn şəxslərin müraciətlərində daha çox dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, müvəqqəti yaşayış sahələrinin təmiri, vahid aylıq müavinətin təyin olunması, məşğulluq və Böyük qayıdış məsələləri üstünlük təşkil edib.

Prezident İlham Əliyevin məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirdiyi, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu kateqoriyadan olan insanlara xüsusi diqqət və qayğı göstərdiyi diqqətə çatdırılıb. Dövlət başçısının işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin doğma yurd-yuvasına qayıdışının başlanması üçün verdiyi tapşırıqların icra vəziyyəti barədə vətəndaşlara məlumat verilib. Bildirilib ki, məcburi köçkünlər üçün yaşayış sahələri yalnız işğaldan azad edilmiş ərazilərdə inşa olunur və qarşıdakı illərdə bu sahədə işlər daha sürətləndiriləcək. Mərhələli qaydada aparılacaq qayıdış zamanı ilk növbədə müvəqqəti məskunlaşma yerlərində ən ağır vəziyyətdə yaşayanlar yeni mənzillərə köçürüləcəklər.

Qəbul zamanı vətəndaşların qaldırdıqları məsələlərin bir qismi yerində həll edilib.

Dövlət Komitəsinin sədri müraciətlərdə qaldırılan məsələlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

# Sülh gündəliyini İlham Əliyev müəyyənləşdirir

Əvvəli 1-ci səh.

Əldə olunmuş yeni razılaşmalar Azərbaycanın postmüharibə dövründə öz mənafelərini inamla təmin etməsindən xəbər verir.

## Yeni reallıqlarda Minsk qrupuna yer yoxdur

Aİ Şurasının Prezidentinin vasitəçiliyi ilə keçirilən Brüssel görüşü Azərbaycanın maraqlarına uyğun və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması istiqamətində atılmış növbəti önəmli addım oldu. Ən mühümü də odur ki, sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Beş baza prinsipi bunlardır: dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Ümumən, Brüssel gündəliyinin əsas önəmli tərəfi Aİ-nin Azərbaycanın yaratdığı yeni reallıqları bölüşməsidir. Bunu Aİ Şurasının prezidentinin istər ötən ilin dekabrında, istərsə də bir neçə gün əvvəl keçirilmiş üçtərəfli görüşlərdən sonra verdiyi bəyanatlarda Ermənistanın "status"la bağlı iddialarına yer verməməsi və artıq Azərbaycanın güc yolu ilə həll etdiyi problemin yoluna qoyulmasında bircə addım belə ata bilməyən ATƏT-in Minsk qrupuna istinad etməməsi də təsdiq edir. O cümlədən bəyanatlarda "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinə də rast gəlinmir. Bunlar da onu göstərir ki, Aİ 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində buna əsaslanır. Həmçinin münaqişə həll olunduğuna görə keçmişin qalığı olan Minsk qrupu artıq lazımsız təsisata çevrilib.

## Aİ İlham Əliyevin regional liderliyini qəbul edir

Görünən həm də odur ki, artıq Aİ-nin dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb. Bu baxımdan Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində Aİ-nin obyektiv mövqeyini qeyd etmək lazımdır. Şarl Mişelin iki dövlət arasındakı münasibətlərin normallaşdırılması istiqamətində təşəbbüsləri tamamilə tərəfsizdir və bir vaxtlar Minsk qrupunun həmsədrlərinin ortaya qoyduqları mövqedən tamamilə fərqlənir. Aİ Şurası prezidentinin istər ötən ilin dekabrındakı görüşdə, istərsə də son görüşdə verdiyi bəyanatların məzmunu bir vaxtlar Minsk qrupunun həmsədrlərinin hər addımda ortaya qoyduqları ikili standartlardan uzaqdır və münasibətlərin normallaşdırılması üçün konkret hədəfləri ehtiva edir. Əlbəttə ki, bu da Aİ-nin timsalında Azərbaycanla Ermənistan arasında sülhün təmin olunmasına hesablanmış vasitəçilik missiyasına olan etimadı təmin edən mühüm amildir.

Onu da qeyd edək ki, Aİ İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Bu amil o cümlədən Azərbaycanla Aİ arasında münasibətlərin yeni inkişaf səviyyəsinə yüksəlməsi, Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolunun daha da yüksəlməsi, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və digər məsələlərin həlli istiqamətində əməli addımlar atılması üçün mühüm şərtdir.

Bütövlükdə Brüssel görüşü regionda münasibətlərin normallaşdırılması baxımından əhəmiyyətli hadisədir, Azərbaycanın siyasi-diplomatik uğurudur. Brüssel sülh gündəliyi həm də Ermənistanın müxtəlif iddialarla üçtərəfli razılaşmaların tələb etdiyi prosesləri ləngitmək cəhdlərinin iflasa uğramasından xəbər verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Kütləvi məzarlıqların sayı artsa da, beynəlxalq təşkilatlar hələ də susurlar

## Qarabağda aşkarlanan insan qalıqları Ermənistanın beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması üçün əsasdır

Əvvəli 1-ci səh.







Aşkarlanan məzarlıqların Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş, öldürülmüş hərbçilərə, mülki şəxslərə aid olduğu qeyd edilir. 44 günlük Vətən müharibəsindəki qələbədən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşların ehtimal edilən məzar yerlərinin müəyyən edilməsi istiqamətində axtarış tədbirləri həyata keçirilir. Minaların basdırılmasına görə hər yerdə qazıntı işləri aparmaq hələlik mümkün deyil. Laklin minalardan təmizlənmiş ərazilərdə qazıntılar nəticəsində belə məzarlıqlar aşkarlanır.

Kütləvi məzarlıqlar bir daha Azərbaycanın necə azğın düşmənlə üz-üzə qaldığını, Ermənistan hərbçiləri tərəfindən beynəlxalq humanitar hüquq normalarının necə kobud şəkildə pozulduğunu aydın göstərir. İnsanlıq əleyhinə törədilmiş bu cinayətlər erməni xislətini bir daha ortaya qoyur.

## Ərazilər minalardan təmizləndikcə kütləvi məzarlıqlar da aşkarlanır

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən edilməsi və ekshumasiyası işlərinə başlayıb.

Ötən ilin aprelin 24-də Baş Prokurorluğun İstintaq İdarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən, Kəlbəcər rayonunun Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirərək torpağa basdırılmış kəskin çürüməyə məruz qalaraq skletləşmiş 12 nəfərin meyitlərinin qalıqları aşkar edilib. Məlum olub ki, 1993-cü il aprelin 3-də Ermənistan silahlı qüvvələrinin Başlıbel kəndinə hücumu zamanı kəndi tərk edə bilməyən 62 nəfər kəndin ən hündür hissəsində yerləşən mağaralara sığınıb. Ermənilər 18 aprel tarixində bəzi şəxslərin qayalara sığındığı yerləri axtararaq aşkar edib və mağaraları atəşə tutmağa başlayıblar. Nəticədə silahsız, müqavimət göstərə bilməyən 12 nəfər sığındıqları yerdə öldürülüb, 14 nəfər isə girov götürülübdür. Ermənilərin əlindən digər mağaralarda gizlənən 36 şəxsdən 7 nəfəri də mühasirə şəraitində aldıqları xəsarətlərdən Kəlbəcər rayonunun müxtəlif kəndlərində dünyasını dəyişib. Sağ qalmış Başlıbel kənd sakinləri sonrakı tarixlərdə iki qrupa bölünməklə müxtəlif mağaralarda gizlənib, 12 may 1993-cü ildə gecə saatlarında həmyerlilərinin qətlə yetirildiyi mağaraların yanına yaxınlaşıb odlu silahlarla qətlə yetirilmiş 12 nəfərin meyitlərini paltarlı vəziyyətdə iki cərgə qəbirlər qazmaqla dəfn etdikdən sonra hadisə yerindən uzaqlaşıblar.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsi zamanı əsir-girovluqda olmuş şəxslərin şahid ifadələrinə əsasən aparılan axtarış-araşdırma tədbirləri nəticəsində işğaldan azad edilmiş Xocavənd rayonunun Edilli kəndində və Füzuli şəhəri ərazisində də kütləvi məzarlıqlar aşkar edilib.

Son olaraq isə martın 28-də Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində bir neçə insana aid naməlum meyit qalıqları aşkarlanıb.

Komissiyanın məlumatına görə, bu yüksəklik uğrunda Birinci Qarabağ müharibəsi zamanı ağır döyüşlərin getdiyini və Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini nəzərə alaraq, tapılan meyit qalıqlarının şəhid olmuş Azərbaycan hərbçilərinə aid olduğu ehtimal edilir. Tapılmış meyit qalıqları ərazidən götürülərək müvafiq ekspertizanın aparılması üçün aidiyyəti üzrə təhvil verilib.

Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi uğrunda döyüşlərdə 62 nəfər Azərbaycan hərbçisi itkin düşmüş şəxs kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyata alınıb. Eyni zamanda Dövlət Komissiyasında toplanmış məlumatlara əsasən, Fərrux yüksəkliyinin yaxınlığında yerləşən Xocalı rayonunun Pirlər kəndində 46 nəfər, Ağdam rayonunun Əliağalı kəndində 11 nəfər Azərbaycan hərbçisi itkin düşüb.

Ümumilikdə araşdırmalara görə, işğaldan azad edilən Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhərinin ətraflarında belə məzarlıqlar mövcuddur. Ərazilər minalardan təmizləndikcə bu məzarlıqlar da aşkara çıxarılacaq.

Prezident İlham Əliyev xarici KİV-ə müsahibəsində, eyni zamanda beynəlxalq səviyyəli görüşlərində qeyd edib ki, Azərbaycan erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etsə də, hələ ki cavab yoxdur: "Mən bilmirəm niyə? Yəqin onlar başa düşürlər ki, orada, sadəcə, hərbi cinayətlərin sübutları olacaq. Lakin bununla belə, biz tələb edirik və yeri gəlmişkən, Avropa İttifaqı da bu məsələ ilə bağlı fikrini bildirib ki, kütləvi məzarlıqların yeri bizə təqdim edilsin. Çünki ehtimal çox böyükdür ki, hər şey Qarabağdadır, bizim işğaldan azad etdiyimiz ərazilərdədir".

## Saxta soyqırımından danışan ermənilər ifşa olunmalıdır

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev qəzetimizə bildirib ki, Birinci Qarabağ müharibəsində 3890 nəfər itkin düşüb. Həmin şəxslər əsir, girov da ola bilərlər. Onların axtarışı davam edir. Bu şəxslərin istər Ermənistan, istərsə də Qarabağ ərazisində qətlə yetirildiyi və yaxud əsir kimi işlədilməsi ilə bağlı müvafiq məlumatlar daxil olmayıb. Bu istiqamətdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məşğul olur, onların bu istiqamətdə işi təqdirəlayiqdir.

Deputat qeyd edib ki, son vaxtlar Prezident İlham Əliyevin beynəlxalq səviyyədə keçirdiyi görüşlərdə bu məsələyə çox diqqət yetirilir. Prezident İlham Əliyevin, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistan Baş naziri Paşinyanın birgə görüşündə də məhz Paşinyana bu məsələdə birmənalı şəkildə daha dəqiq olması tövsiyə edilib.

Arzu Nağıyev qeyd edib ki, Ermənistan bu məsələ ilə ciddi məşğul olmalıdır: "Aidiyyəti beynəlxalq qurumlar Azərbaycana məhz bu işində kömək edəcəklərinə dəfələrlə söz veriblər. Düşünürəm ki, Azərbaycan bu proseslərdən sonra Ermənistan tərəfini məhkəməyə verəcək".

İşğaldan azad olunmuş ərazilərdə kütləvi məzarlıqlar tapılmaqda davam edir. Deputat ərazilərin minalardan təmizlənmə prosesindən sonra kütləvi məzarlıqlarla bağlı daha çox məlumatlar olacağını düşündüyünü deyib. Əsas məsələ hər tapılan meyitin, sümük qalıqlarının DNT testi aparılaraq həmin ərazidə itkin düşmüş hərbçi və ya mülki vətəndaşlarımıza aid olmasını öyrənməkdir. Ərazilərimizin işğaldan azad edilməsindən sonra Kəlbəcər, Xocavənd istiqamətində, Fərrux yüksəkliyində tapılmış sümük qalıqları DNT analiz təyinatlı laborator müayinələrə təqdim edilib. Əsas odur ki, ermənilərin azərbaycanlılara qarşı törətdiyi bu cinayətlər bütün dünyaya göstərilsin. Saxta soyqırımından danışan ermənilər bir daha ifşa olunmalıdır.

## Ermənilərin dinc insanlara qarşı törətmiş olduqları müharibə cinayətləri

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva kütləvi məzarlıqlarla bağlı dəfələrlə beynəlxalq qurumlara müraciət ünvanlayıb. Ombudsmanın Xocavənd rayonunun Edilli kəndində aşkarlanan kütləvi məzarlıqla bağlı müraciətində qeyd olunub ki, Ermənistan tərəfindən Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürülmüş azərbaycanlılar amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirilib, daha sonra onların nəşləri kütləvi şəkildə basdırılıb: "Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun topladığı şahid ifadələri və materiallar əsasında daha bir kütləvi məzarlıq Xocavənd rayonunun Edilli kəndində aşkar edilib. Burada Ermənistan silahlı qüvvələri tərəfindən işğal dövründə girovluqda saxlanılarkən qətlə yetirilmiş 15-20 nəfər azərbaycanlı mülki şəxsin nəşinin 3 metr dərinlikdə basdırıldığı məlum olub. Bu kəndin ərazisində başqa kütləvi məzarlıqların da olması ehtimal edilir".

Müraciətdə vurğulanıb ki, bu, beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarının, o cümlədən "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il tarixli Cenevrə Konvensiyasının, xüsusilə də "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" Konvensiyanın və ona dair 1977-ci il tarixli I Əlavə Protokolun müddəalarının Ermənistan tərəfindən kobud şəkildə pozulmasıdır.

Ərazilər minalardan təmizləndikcə aşkara çıxan kütləvi məzarlıqlar Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətini, dinc insanlara qarşı törətmiş olduğu müharibə cinayətlərini bir daha sübut edir. Bütün bu faktlar Ermənistanın beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması üçün əsasdır.

Ombudsman Xocalı rayonunun Fərrux kəndində tapılmış kütləvi məzarlıqla bağlı bildirir ki, Ermənistanın xalqımıza qarşı əsrlər boyu davam etdirdiyi nifrət siyasəti nəticəsində zaman-zaman on minlərlə dinc insan etnik və dini mənsubiyyətinə görə kütləvi şəkildə, xüsusi amansızlıqla qətlə yetirilib. İşğaldan azad edilmiş ərazilərimizdə aşkar olunan kütləvi məzarlıqlar bu cür halları bir daha sübuta yetirir və müharibə cinayətlərinin törədildiyini təsdiq edir. Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslər haqqında qarşı tərəfin bu günədək hər hansı məlumat verməməsi və azad edilmiş ərazilərdə aşkar olunan insan qalıqları onlardan bəzilərinin amansızcasına qətlə yetirilərək kütləvi məzarlıqlarda basdırıldığını deməyə əsas verir. Aşkar olunmuş kütləvi məzarlıqlar Ermənistanın azərbaycanlılara qarşı soyqırımı siyasətini bir daha sübut edir.

Müraciətdə beynəlxalq ictimaiyyəti azərbaycanlılara qarşı qəsdən törədilmiş sülh və insanlıq əleyinə cinayətlərə, müharibə cinayətlərinə beynəlxalq hüquq normaları əsasında yanaşmağa və qətiyyətli mövqe nümayiş etdirməyə çağırış edilir.

Bu qədər faktlar, müraciətlər qarşılığında isə beynəlxalq təşkilatlar hələ də susurlar. İnsanlıq faciəsi törədən, beynəlxalq humanitar hüquq normalarını pozan ermənilər cəzalandırılmır. Lakin gün gələcək erməni vandalları bu cinayətlərə görə mütləq cavab verməli olacaqlar.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# REGİONLAR



## Füzulidə Prezident İlham Əliyevin uğurlu xarici siyasəti mövzusunda tədbir keçirilib

Füzuli rayonunda "Ölkəmizin beynəlxalq nüfuzunun artması Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsidir" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Füzuli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Horadiz şəhərində yerləşən rayon təhsil şöbəsində reallaşıb.

Toplantıda rayon icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülbahar Eyvazova çıxış edərək, Prezident İlham Əliyevin uğurlu xarici siyasətindən və bu siyasətin ölkəmiz üçün müsbət nəticələrindən söz açıb. Ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə artmasının Prezident İlham Əliyevin şəxsi nüfuzu, yorulmaz fəaliyyəti, yüksək intellekti sayəsində mümkün olduğunu diqqətə çatdıran natiq hazırda Azərbaycana olan müsbət maraqların daha da artdığını vurğulayıb.

Rayon Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyev çıxışında ölkəmizin evsahibliyi etdiyi idman oyunlarının, müxtəlif tədbir və yarışların əslində dövlətimizin dünyada təbliği, Azərbaycana olan maraqların artması baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Yüksək liderlik qabiliyyətinə malik olan Prezident İlham Əliyevin ölkəmizin təhlükəsizliyinin təminatı baxımından olduqca düşünülmüş xarici siyasət yürütdüyünü vurğulayan natiq bu siyasi yolun bizi uğurlu sabahlara aparacağından əminliklə danışıb.

Sonda Prezident İlham Əliyevin uğurlu xarici siyasətindən bəhs edən videoçarx nümayiş olunub.

## Türkiyənin xeyriyyə təşkilatı Gəncədə aztəminatlı ailəyə mənzil hədiyyə etmişdir

Türkiyənin "Hər zaman, hər yerə yaxşılıq" devizi ilə fəaliyyət göstərən "İnsan Hak və Hürriyətləri İnsani Yardım Vakfı" xeyriyyə təşkilatı ötən il olduğu kimi, bu il də ramazan ayında Gəncənin bir sıra aztəminatlı ailələri ilə görüşərək yardım paylamışdır.



Keçən ildən fərqli olaraq bu il təşkilat Gəncədəki aztəminatlı bir ailəyə mənzil də hədiyyə etmişdir. Bu günlərdə mənzilin açarları Solmaz Həsənovaya təqdim olunmuşdur.

Təşkilat yeni mənzildə ramazan ayı münasibətilə iftar süfrəsi də təşkil etmişdir. Ramazan süfrəsində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş Konsulu Zəki Öztürk "İnsan Hak və Hürriyətləri İnsani Yardın Vakfı"nin Orta Asiya və Qafqaz üzrə koordinatoru Məhəmməd Həmzə Nədimoğlu və başqaları iştirak etmişlər. Niyazi Bayramov yeni mənzil münasibətilə ailə üzvlərini təbrik edərək onlara hədiyyə təqdim etmişdir. Solmaz Həsənova təşəkkürünü bildirmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Yüksək məhsuldarlığın ilkin şərti müasir texnika və texnologiyalardan istifadədir



Hazırda dünyanın qarşılaşdığı əsas problem ərzaq çatışmazlığı və bu məhsulların qiymətinin sürətlə bahalaşmasıdır. Koronavirus pandemiyası və Rusiya-Ukrayna müharibəsi dünyada illərlə formalaşmış təchizat zəncirinin qırılmasına səbəb olub.

İş o yerə çatıb ki, İkinci Dünya müharibəsindən sonra ərzaq qıtlığı yaşamayan Avropa ölkələrinin supermarketlərinin piştaxtaları boş qalıb.

Dünyada başlanan bu ərzaq böhranı hamını düşünməyə vadar edib. İndi bir çox dövlətlər əsas ərzaq məhsullarının yerli istehsalına üstünlük verirlər. İndi bu məhsullar da enerji daşıyıcıları kimi sanksiya aləti ola bilib. Beləliklə, ərzaq təhlükəsizliyi hər bir ölkə üçün daha ciddi məsələyə çevrilib. Təsadüfi deyil ki, dövlətlərin aqrar sektora daha çox əhəmiyyət verməsinin şahidi oluruq. Bir çox ölkələrdə bu məsələ parlamentdə müzakirə olunaraq hökumətlərdən müvafiq tədbirlərin görülməsi tələb edilib.

Qeyd edək ki, Azərbaycan müstəqilliyinə yenidən nail olduqdan sonra ərzaq təhlükəsizliyinə xüsusi əhəmiyyət verir. Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə keçmiş SSRİ-də ilk torpaq islahatı Azərbaycanda aparılıb. Bunun nəticəsidir ki, ölkəmizdə müstəqilliyimizin ilk illərindən bugünədək məhsul istehsalı 2 dəfə artıb. Bu gün Azərbaycan buğda istehsalı xaric digər kənd təsərrüfatı məhsulları ilə özünü təmin etmək iqtidarındadır. Bu fakt onu göstərir ki, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən tədbirlər bəhrəsini verib.

Azərbaycanda aqrar sektorda yüksək məhsul əldə etmək üçün dünyanın inkişaf etmiş ölkələrinin müasir texnika və texnologiyalarından geniş istifadə olunur. Xüsusilə "Aqroservis" ASC dünyanın qabaqcıl ölkələrində istehsal olunan texnika və texnologiyaların Azərbaycanda istifadəsinə çalışır. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyinin və cəmiyyətin nümayəndələri fermerlərlə mütəmadi görüşlər keçirir. Məqsəd aqrar sahədə çalışan sahibkarlara müasir kənd təsərrüfatı avadanlıqlarının üstünlüklərini göstərməkdir.

Dünyada yüksək məhsul əldə edilməsinin əsas yolunun yeni texnika və texnologiyalardan keçdiyi sübut olunub. Məsələn, torpaq və iqlim şəraitləri yaxşı olmayan Niderland və İsrail kənd təsərrüfatlarında yüksək məhsuldarlığa nail ola biliblər. Səbəb bu ölkələrdə elmi əsaslarla hazırlanmış yeni kənd təsərrüfatı vasitələrindən istifadə edilməsidir.

Ölkəmiz İsraillə aqrar sektorda innovativ üsullardan istifadə edilməsi sahəsində sıx əməkdaşlıq edir. Xeyli müddətdir ki, bu ölkə ilə bir çox layihələr icra olunur. Bunlardan biri də ötən il İsmayıllı rayonunda İsrail istehsalı olan dronların kənd təsərrüfatında geniş tətbiqidir. Növbəti razılaşma İsrailin su resurslarının idarə edilməsi sahəsində ixtisaslaşmış "Mekorot" şirkəti ilə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti arasında imzalanıb. Şirkətlə cəmiyyət arasında iş birliyi sayəsində İsrailin qabaqcıl təcrübəsinin ölkəmizə transferi, texnoloji imkanların genişləndirilməsi, innovativ alətlərin tətbiqi üzrə yeni əməkdaşlıq platforması yaradacaq ki, bu da hər iki tərəf üçün faydalı olacaq.

Azərbaycanın İsraillə kənd təsərrüfatı sahəsində yaxından əməkdaşlıq etməsi təsadüfi deyil. Çünki İsrail qeyri-məhsuldar torpağı, əlverişsiz iqlimi və məhdud su resursları ilə kənd təsərrüfatı sahəsində yüksək məhsuldarlığa nail olan ölkələr sırasında yer alıb. Biz də bu ölkənin texniki imkanlarından və zəngin təcrübəsindən faydalanmaq üçün əlaqələri genişləndiririk.

Ölkəmizin aqrar sektorda apardığı islahatlar, ona verilən dövlət dəstəyi və müasir kənd təsərrüfatı vasitələrindən istifadə öz bəhrəsini verir. Bu, məhsul ixracında aydın şəkildə görünür. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin açıqladığı rəqəmlərə görə, cari ilin yanvar-mart aylarında Azərbaycanın meyvə-tərəvəz üzrə ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 28,5 faiz artıb. Bununla yanaşı, hesabat dövründə pambıq iplik ixracı 29,3, pambıq lifi ixracı isə 5,6 faiz çoxalıb. İlk baxışdan adi görünən bu statistik rəqəmlər ölkənin kənd təsərrüfatında olan dinamik inkişafı əks etdirir. Hazırda yerli istehsal hesabına qoyun əti ilə 100, mal və quş əti ilə 80 faiz təmin olunması da bu sahədə görülən real işlərin nəticəsidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Naxçıvanın tibbi müayinə və müalicə işləri müasir tibbi avadanlıqlarla aparılır

Səhiyyənin inkişafı istiqamətində həyata keçirilən kompleks tədbirlərin nəticəsində muxtar respublikanın səhiyyə müəssisələrində bu gün müasir tibbi avadanlıqlarla müayinə və müalicə işləri aparılır.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, səhiyyə müəssisələrində təcili yardım, elektrokardioqrafiya, exokardioqrafiya, EKQ-tredmil, rentgen, çoxprofilli diaqnostika, hemodializ, cərrahiyyə, kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə insan orqanizminin hərtərəfli müayinəsi mümkündür.

Müasir tibbi avadanlıqlarla təminat Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda da şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə yüksək səviyyədə səhiyyə xidmətinin göstərilməsinə, o cümlədən tibbi yardım, ixtisaslı həkimlər tərəfindən müayinə və müalicələrin aparılmasına, həmçinin ehtiyac olan dərman preparatları ilə ödənişsiz təmin edilməsinə, sağlamlıq imkanları məhdudluğun təyin olunması üçün lazımi tibbi sənədlərin hazırlanmasına və digər xidmətlərin göstərilməsinə imkan verir.

## Ağstafada KOB dostu fəaliyyətə başlayıb

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən Ağstafa rayonu üzrə Kiçik və Orta Biznesin dostu (KOB) rayon ictimaiyyətinə təqdim olunub.



Təqdimat mərasimində qeyd edilib ki, Qazax-Tovuz iqtisadi rayonu üzrə sayca 2-ci olan KOB dostu Ağstafanın Heydər Əliyev Mərkəzində fəaliyyət göstərəcək. Təşkilat rayonda yeni sahibkarlıq subyektlərinin yaranmasına və mövcud KOB-ların inkişafına hərtərəfli dövlət dəstəyini təmin edəcək. Ağstafa KOB dostu həmçinin sahibkarların maraqlarının müdafiəsi, investisiya təşəbbüslərinin reallaşdırılması, biznes məsələlərinə dair məlumatlandırma, sahibkarların qarşılaşdıqları çətinliklərin həlli istiqamətində dövlət-sahibkar əməkdaşlığı platforması çərçivəsində müvafiq tədbirlər həyata keçirəcək, dəstək və xidmətlər göstərəcək.

Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış edərək sahibkarlara yerində dəstəyin təmin olunması baxımından KOB dostlarının fəaliyyətinin önəmini qeyd edib, effektiv dəstək mexanizmi kimi digər rayonlarda sahibkarlığın inkişafına və biznesin qarşılaşdığı çətinliklərin operativ həllinə öz töhfəsini verdiyini vurğulayıb. Sahibkarlar KOB dostu ilə sıx əməkdaşlığa dəvət olunub, KOB dostu şəbəkəsinin genişlənərək, ölkənin digər şəhər və rayonlarını da əhatə edəcəyi bildirilib.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov rayonun iqtisadi potensialının geniş olduğunu və rayonda sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanların mövcudluğunu diqqətə çatdırıb, KOB dostunun sahibkarlara dəstək olacağına əminliyini ifadə edib.

Tədbir çərçivəsində KOB-lara göstərilən dəstək mexanizmləri barədə filmlərin nümayişindən sonra sahibkarların təklifləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

## Tovuzun emal sənayesinə xarici investorlar da cəlb olunurlar



Hazırda Azərbaycanın qarşıya qoyduğu əsas hədəflərdən biri də daxili istehsal hesabına ölkənin ərzaq təhlükəsizliyinə nail olmaqdır. Çünki xüsusən indiki dövrdə etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biri hesab olunur.

Bu baxımdan Prezident İlham Əliyevin ölkənin ərzaq təhlükəsizliyi məsələsini daim diqqət mərkəzində saxlaması və bu istiqamətdə davamlı olaraq zəruri tədbirlər həyata keçirməsi başadüşüləndir.

Ərzaq təhlükəsizliyinin təminatında isə emal müəssisələrinin rolu böyükdür. Son illər bölgələrdə bu sahə üzrə çoxsaylı tədbirlər həyata keçirilmişdir. Həmin hesaba istehsal olunan kənd təsərrüfatı məhsullarının yerlərdə emalı mümkün olmuşdur. Bu isə regionların sənaye potensialını üzə çıxarmaqla yanaşı, həm də yeni iş yerlərinin açılmasına şərait yaratmışdır.

Tovuz rayonunda da bu istiqamətdə görülən işlər diqqətəlayiqdir. Bunun sayəsində hər il xeyli həcmdə və çeşiddə ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalında uğurlu nəticələrə nail olunur. Sevindirici haldır ki, bu gün də rayonda müasir standartlara cavab verən aqraryönümlü müəssisələr yaradılır və bu, aqrar və emal sahələrinin sürətli inkişafına imkan verir.

Məlum məsələdir ki, taxılçılıqda yüksək məhsuldarlığın əldə olunması digər amillərlə yanaşı, yüksək reproduksiyalı toxumdan və lazımi aqrotexniki qulluqdan çox asılıdır. Bunu nəzərə alan Kənd Təsərrüfatı Nazirliyi 2018-ci ildə rayonda dənli bitki toxumlarının emalı zavodunu inşa etdirdi. Artıq 3 ildir ki, zavod yüksək kondisiyalı və məhsuldar buğda və arpa toxumları emal edərək qərb bölgəsinin fermerlərinə satır. Saatda 5 ton toxum emal etmək gücünə malik olan müəssisə inzibati binadan sahəyı, toxumtəmizləyici mərkəzdən, emal prosesindən əvvəl toxum materialının boşaldılması və hazır toxumların saxlanılması üçün nəzərdə tutulan anbardan ibarətdir. Zavodda toxumun keyfiyyət və məhsuldarlıq parametrləri üzrə müayinə edilməsi üçün müasir standartlara uyğun laboratoriya da quraşdırılmışdır. Laboratoriyada yerli iqlim şəraitinə uyğun və xəstəliklərə davamlı toxumlar emal edilir, fərdi toxumçuluq təsərrüfatlarından tədarük olunan toxumların təmizlənməsi, qablaşdırılması və sertifikatlaşdırılması həyata keçirilir. Yeri gəlmişkən qeyd edək ki, keçən il zavodda 3 min tondan çox toxum emal edilmişdir.

Tovuz tütünçülük üçün də əlverişli rayondur. Prezident İlham Əliyevin 10 avqust 2017-ci ildə imzaladığı "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsinə dair sərəncamından sonra rayonda bu sahə üzrə geniş tədbirlər planı hazırlanaraq həyata keçirilməyə başlanılmışdır. Bu çərçivədə "Tovuz aqrosənaye" MMC-nin nəzdində tütünqurutma müəssisəsi yaradılmış və istifadəyə verilmişdir. Müəssisə uzun illərdən bəri bölgədə hökm sürən məhsulun realizə probleminin həllində vacib rol oynamışdır. Əvvəllər tütün istehsalçıları topladıqları məhsulu rayondan bir neçə kilometr uzaqda olan tütün qəbulu məntəqələrinə apararaq təhvil vermək məcburiyyətində qalırdılarsa, keçən ildən etibarən istehsal edilən tütün rayon mərkəzində olan bu məntəqəyə təhvil verilir. Qeyd edək ki, müəssisədə 22 tütünqurutma kamerası, çeşidləmə məntəqəsi, anbar və digər yardımçı binalar mövcuddur. Hər kameraya 5 tondan artıq tütün yığmaq mümkündür. Qurudulmuş tütün burada çeşidlənərək preslənir.

Dövlət başçısının diqqət və qayğıkeşliyi ilə ölkəmizdə üzümçülüyün dirçəldilməsindən sonra tovuzlularda da bu sahəyə yenidən həvəs yaratmışdır və qısa vaxt ərzində bağlar yenidən bərpa edilmişdir. Bağlarda müxtəlif növ süfrə üzümü sortları ilə yanaşı, şərab istehsalı üçün texniki sortlar əkilmişdir. Ötən illərdən fərqli olaraq indi fermerlər texniki üzüm sortunun emalında heç bir çətinliklə üzləşmirlər. 2019-cu ildə fəaliyyətə başlayan "A+CO" MMC ildə 3 min ton üzüm qəbul etmək gücünə malikdir. Zavodda İtaliyadan, Fransadan və digər xarici ölkələrdən gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Artıq 3 ildir ki, rayonun üzümçülüklə məşğul olan fermerləri və ətraf bölgələrin sakinləri yetişdirdikləri texniki üzüm sortlarını bu müəssisəyə təhvil verirlər.

Rayonda təkcə bitkiçilik deyil, heyvandarlıq üzrə də emal müəssisələri fəaliyyət göstərir. Ölkəmizdə ən iri ətçilik üzrə ixtisaslaşmış emal müəssisəsindən biri də "Tovuz-Aqro" MMC-dir. Hunanlar kəndi ərazisində yerləşən müəssisənin tikintisinə 2017-ci ilin oktyabr ayında başlanılmış və 2019-cu ilin dekabr ayında başa çatdırılmışdır. Burada əkinçilik, heyvandarlıq və heyvandarlıq məhsullarının istehsalı, emalı və satışı ilə məşğul olunur. Müəssisə 550 hektar ərazini əhatə edir. 450 hektar sahədə mənbəyini Kür çayından götürməklə "Pivot" suvarma sistemi quraşdırılmışdır ki, bu da hər il yem istehsalında yüksək məhsuldarlığa zəmin yaradır. Fəaliyyətə başladığı vaxtdan indiyədək müəssisədə 1500 tondan artıq ekoloji təmiz mal əti istehsal edilmişdir. Ət satışı hələlik daxili bazarlarda həyata keçirilir. Lakin yaxın vaxtlarda müəssisədə istehsal olunan məhsulların xarici bazarlara da ixrac edilməsi nəzərdə tutulur.

Tovuzda emal müəssisələrinin siyahısına yenilərinin əlavə olunması üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu işdə həm yerli, həm də xarici investorların rayona cəlb edilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Yeni emal müəssisələrinin istifadəyə verilməsi isə həm ərzaq təminatında, həm də yüzlərlə rayon sakininin daimi işlə təminatında müsbət rol oynayır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu ərazisində super-intensiv gilas bağı salınacaq

"Aqrar məsləhət xidmətlərinin gücləndirilməsi" layihəsinin mütəxəssisləri Aqrar Xidmətlər Agentliyinin nümayəndələri ilə birgə Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutuna səfər ediblər

Layihə iştirakçıları ilə görüşdə "ağıllı bağ"da quraşdırılmış sensor cihazların gücləndirilməsinə dəstək göstərilməsi və ətraf ərazidə fəaliyyət göstərən fermerlərin də bu imkanlardan yararlanması mövzusunda müzakirələr aparılıb.

Qonaqlara institutun fəaliyyəti və icra etdiyi layihələr haqqında ətraflı məlumat verilib.

İstixana kompleksinə və institutun Zərdabi adına Elmi-Təcrübə Bazasında yerləşən "ağıllı bağ"a və təcrübə sahələrinə qonaqlarla birgə baxış keçirilib. Aparılan müzakirələrin nəticəsi olaraq Quba Regional Təlim Mərkəzi, FAO-nun "Aqrar məsləhət xidmətlərinin gücləndirilməsi" layihəsinin maliyyə dəstəyi ilə institut ərazisində 0,5 hektar sahədə super-intensiv gilas bağı nümayiş sahəsinin salınması planlaşdırılıb.

"Aqrar məsləhət xidmətlərinin gücləndirilməsi" layihəsi Avropa İttifaqının maliyyə dəstəyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) dəstəyi ilə həyata keçirilir.

## Cəlilabadda nübar çiyələk yığılır

Təbiətin oyanış fəsli sayılan baharın qayğıları cəlilabadlı fermerlərdən də yan keçmir. Bu günlər rayonun əmək adamları hamılıqla şəxsi təsərrüfatlarında, ucsuz-bucaqsız tarlalarda alın təri axıdaraq çalışırlar.



Son illər rayon fermerləri çiyələk sahələrini xeyli genişləndirmişlər. Dövlət tərəfindən ayrılan subsidiyalar fərdi təsərrüfatlarda çiyələk becərənlərin sayını artırıb. Keçən il rayonun təsərrüfatlarında hər hektardan 254 sentner olmaqla 12 min 440 ton məhsul toplanmışdı. Hazırda isə 490 hektar sahədə çiyələk becərilir.

Cari mövsüm örtük altında yetişdirilən çiyələk sahələri xeyli artırılaraq 300 hektara çatdırılıb. Bu isə bazarlara daha çox nübar çiyələyin çıxarılmasına imkan verir. Artıq bir neçə gündür ki, örtük altında yetişdirilən çiyələyin yığımına başlanılıb. Tələbat çox olduğu üçün satış, əsasən, daxili bazarlarda həyata keçirilir.

Amma bəzi fermerlər çiyələyin ixracı üçün xaricdən də təkliflər alıblar. Daxili bazarlarla yanaşı, xaricdə də çiyələyə tələbatın çox olduğunu nəzərə alan fermerlər İspaniyadan gətirilərək yerli iqlim şəraitində təcrübədən keçirilmiş yüksək reproduksiyalı çiyələk sortlarından məhsul əldə etməyə başlayıblar. Məhsul istehsalçıları meyvələri bərk, keyfiyyətli, məhsuldarlığı daha yüksək olan "Murano", "Kleri", "Atika" sortlarının yetişdirilməsinə üstünlük verirlər. Yeni sortlardan əldə edilən məhsul daha uzaq məsafələrə daşınmaq üçün əlverişli hesab olunur.

Qeyd edək ki, çiyələk əkilmiş sahələrdən 6-7 ay müddətində məhsul toplanılır. Təsərrüfat sahiblərindən Murad Həsənovun, Vüqar Musayevin, Mirismayıl Quliyevin, Yaşar Əzizovun başçılıq etdikləri kollektivlər ilk günlərdən yaxşı göstəricilər əldə ediblər. Onlar deyirlər ki, məhsulun satışında heç bir çətinlik yoxdur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Tələbələrə təqaüd təqdim edilib

**Aprelin 8-də 2021-2022-ci tədris ilinin qış imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan ali məktəb tələbələrinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ RK) adlı təqaüdünün təqdim edilməsi mərasimi keçirilib.**



Tədbirdə çıxış edən ATİAHİ Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev qeyd edib ki, ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü 1995-ci ildə təsis edilib. O vaxtdan bu günə qədər ali təhsil müəssisələrində qış və yay sessiyasının nəticələrinə görə uğur əldə etmiş 2654 nəfər tələbə bu təqaüddən yararlanıb: "Bu gün isə daha 65 tələbəyə bu təqaüd təqdim ediləcəkdir. Bu təqaüdün verilməsində məqsəd tələbələrdə elmə, təhsilə marağı artırmaq və Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasətinə dəstək verməkdir".

Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən danışan S.Möhbalıyev bildirib ki, ölkədə gənclərin sağlam ruhda böyüməsi və layiqli vətəndaş kimi yetişməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirilir: "Əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən davam etdirilən uğurlu gənclər siyasəti gənclərin potensial imkanlarından səmərəli istifadə etməklə ölkəmizin qüdrətli dövlətə çevrilməsi prosesini stimullaşdırır. Möhtərəm Prezident gənclərimizin hərtərəfli inkişafı üçün bütün imkanlardan istifadə edir. Son illərdə gənclərlə bağlı atılan addımlar bunun əyani sübutudur".

2022-ci ilin fevralında Prezident İlham Əliyev tərəfindən gənclərin inkişafına istiqamətlənmiş daha bir sənədə imza atılmasını, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın qəbul olunmasını xatırladan S.Möhbalıyev qeyd edib ki, bu proqramın icrası nəticəsində gənclərimizin inkişafı təmin ediləcək.

S.Möhbalıyev əlavə edib ki, bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir. Gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atır: "Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Biz 44 günlük Vətən müharibəsində bunun əyani şahidi olduq. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar".

Sonra 2021-2022-ci tədris ilinin qış imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan 65 nəfər ali məktəb tələbəsinə ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü təqdim edilib.

Tədbirdə çıxış edən tələbələr göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Gəncə şəhər rəhbərliyi şəhid Rauf Əsgərovun anası ilə görüşüb

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov 44 günlük Vətən müharibəsi qəhrəmanlarından biri - şəhid Rauf Əsgərovun anası Brilliant Əsgərova ilə görüşüb.**



Niyazi Bayramov şəhid anası ilə söhbətdə Vətən müharibəsi zamanı ölkəmizin bütövlüyü uğrunda gedən döyüşlərdə canlarını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçılarına dövlət başçısı tərəfindən göstərilən xüsusi diqqət və qayğıkeşlikdən danışıb. Bildirib ki, şəhid ailələrinin mənzil-məişət şəraitinin, sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilir. Brilliant Əsgərova şəhid ailələrinə göstərilən hərtərəfli diqqət və qayğıkeşliyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz adından və şəhid anaları adından təşəkkürünü bildirib. Bununla yanaşı, Brilliant xanım bir sıra müraciətlərini də şəhər rəhbərliyinin diqqətinə çatdırıb.

Şəhid anasının müraciətlərinin bəziləri yerindəcə həll olunub, digərləri isə qeydiyyata alınaraq aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

***"Azərbaycan"***

# Aprel şəhidi Mirsalam Cəfərovun doğum günü qeyd edilmişdir

**Mirsalam Təvəkkül oğlu Cəfərov 1994-cü il aprelin 4-də Tovuz rayonunun Bayramlı kəndində anadan olub. 2013-cü ildə Hərbi Tibb Məktəbini bitirən M.Cəfərov Beyləqan rayon "N" saylı hərbi hissədə xidmətə başlamışdır.**



2014-cü ildə Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrin kursunu keçmiş Mirsalam 2015-ci ildə Ankara Xüsusi Təyinatlı Qüvvələr məktəbində məzun olmuş və Azərbaycanda kəşfiyyatçı kimi xidmətə başlamışdır.

Gizir Mirsalam Cəfərov 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən döyüş zamanı şəhid olmuş və aprelin 11-də doğulduğu Tovuz rayonunun Bayramlı kəndində son mənzilə yola salınmışdır.

Mirsalam Cəfərov ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Qədirbilən tovuzlular rayonun digər şəhidləri kimi, onu da böyük hörmətlə yad edir, xatirəsinə ehtiram göstərirlər. Şəhidin doğum günündə də həmyerliləri onun ailəsini tək qoymamış, uyuduğu məzarın önündə ad gününü qeyd etmişlər. Sonra anım mərasimi şəhidin ailəsinin evində davam etmişdir. Tədbir iştirakçıları burada onun keçdiyi həyat yolundan bəhs edən guşəyə baxmış, valideynlərinin xatirələrini dinləmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Ən yaxşı tank heyəti" adı uğrunda yarışlar keçirilir

**Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı tank heyəti" adı uğrunda yarışlar keçirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarışlarda tank heyətləri minalanmış sahələri və digər maneələri dəf etdikdən sonra təyin olunmuş müddətdə şərti düşmənin yer, hava hədəflərini, eləcə də tank əleyhinə vasitələrini yerində və hərəkətdə olarkən məhv edilməsi üzrə tapşırıqları icra edirlər.

Yekun nəticələrə əsasən ən yaxşı tank heyəti müəyyən olunacaq.



# Əlilliyi olan şəxslərə 13,1 min reabilitasiya vasitəsi verilib




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-mart ayları ərzində 2958 əlilliyi olan şəxsə 13084 reabilitasiya vasitəsi verilib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin kateqoriyadan olan şəxslər 262 ədəd aşağı ətraf protezi, 41 ədəd yuxarı ətraf protezi, 426 ortez, 3830 hərəkət dayaq vasitələri, 1354 cüt protez ayaqqabı ilə təmin ediliblər. Onların, həmçinin 1372 ortopedik ayaqqabı, 444 ədəd eşitmə aparatla və s. təminatı həyata keçirilib. Son 3 ayda 543 əlilliyi olan şəxsə təkərli oturacaq verilib ki, onlardan bir qismi mühərrikli təkərli oturacaqlardır.

Müharibə əlillərinin yüksək texnologiyalı protezlə təminatı bu ilin ilk rübündə də davam edib və ümumilikdə bu proqram üzrə 270 nəfər müharibə əlili yüksək texnologiyalı 290 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib.




## "OnePlus"un ilk planşeti



"OnePlus" şirkəti ilk planşetinin təqdimatına hazırlaşır. "OnePlus Pad 5G" adlı planşet Full HD+ keyfiyyətli 12.4 düym OLED ekran ilə təchiz olunub. "Snapdragon 865" prosessoruna malik planşetin 6 GB RAM və 128 GB daxili yaddaşı, 13 MP + 5 MP ikili arxa və 8 MP-lik ön kamerası var.

"OnePlus Pad 5G"nin digər özəllikləri arasında smartfonun kənarına inteqrasiya edilən barmaq izi skanı texnologiyası, naqilli qulaqlıqlar üçün nəzərdə tutulmuş 3.5 millimetrlik audiogiriş və blutuz texnologiyası da olacaq. Planşet 45 vatt gücündə sürətli şarj texnologiyalı, yüksək enerji tutumlu batareya ilə təchiz olunaraq "Android 12" vasitəsilə çalışacaq.

Yeni məhsulun təqdimatının yaxın aylarda baş tutması nəzərdə tutulur.

## Əsrarəngiz rəsədxana

**Peruda Kasma və Seçin çaylarının arasında yerləşən "Çankillo" arxeoloji kompleksi dünyanın heç bir yerində görünməmiş unikal özəlliklərə sahibdir. Belə ki, inklər indiki Peru ərazisində öz imperiyalarını qurmazdan və Günəş tanrısına sitayiş etməzdən uzun müddət öncə naməlum sivilizasiya Amerikada ən qədim Günəş rəsədxanasını inşa edib.**



Sakit okean sahilində yerləşən səhradakı "Çankillo" "13 qüllə" adlı Günəş rəsədxanasından, məbəddən, yaşayış və xüsusi yığıncaqlar üçün nəzərdə tutulmuş yerlərdən ibarətdir. Alimlərin fikrincə, bu kompleksdən müxtəlif ayinlərin keçirilməsi və Günəşin müşahidəsi üçün istifadə olunub. Onu yaradanlar Günəş təqvimindən istifadə ediblər.

Rəsədxananın 13 qülləsi şimaldan cənub istiqaməti üzrə yerləşən təpədə inşa edilib. Qüllələr arasındakı məsafə eynidir. Qüllələrdən ibarət xəttin uzunluğu, təqribi olaraq, 300 metrdir. Sözügedən xəttin müxtəlif nöqtələrinə baxan zaman aydın görmək olar ki, bu rəsədxana il ərzində Günəşin doğuşu ilə qürubunun dəqiq yerini göstərir. Məsələn, yay fəslinin daxil olduğu gün Günəşin çıxması sağ tərəfdən olan ən sonuncu qüllənin sağ hissəsində görünür. Qışa keçidin baş verdiyi gün isə Günəş sol tərəfdən olan ən son qüllənin sol hissəsində parlayır. Bu qüllələr elə mükəmməl şəkildə yerləşdirilibdir ki, təpəyə yaxın olan müşahidəçi bir neçə gün ərzində Günəş doğuşunu və qürubunu müşahidə etməklə ilin hansı fəsildə olduğunu asanlıqla təyin edə bilər. Məsələn, sentyabrda gecəylə gündüzün bərabərləşdiyi anı Günəşin altıncı və yeddinci qüllələr istiqamətindəki qürubu sayəsində təyin etmək olur.

Rəsədxananı inşa edən qədim sivilizasiya barəsində, demək olar ki, heç bir məlumat yoxdur. Lakin bəzi fərziyyələrə görə, o, inklərin sivilizasiyasından 1000 il əvvəl mövcud olub. Arxeoloqlar onu inşa etmiş qədim sivilizasiyanı "Kasma-Seçin" adlandırıblar.

Bu kompleks 2021-ci ildə UNESCO-nun Ümumdünya İrsi siyahısına daxil edilib.

## Ultra süni zəka təhlükəlidirmi?



Süni zəkanın insanlığı məhv edəcəyi barədə çoxlu fikirlər var. Alimlər düşünürlər ki, nə zamansa insanlar süni zəkanı idarə edə bilməyəcəklər. Problem ondadır ki, insan anlayışı sərhədindən çox uzaqda olan süni zəkanın idarəsi üçün onun simulyasiyası lazım olacaq. Nəticədə biz həmin simulyasiyanı analiz edə bilərik. Əgər onu anlamaq qabiliyyətinə malik deyiliksə, deməli, simulyasiyanı yaratmaq da mümkün olmayacaq.

Mütəxəssislərin fikrincə, əgər kompüter sistemi proqramçıların imkanlarından daha üst səviyyədə çalışırsa, artıq ona hansısa məhdudiyyəti qoymaq imkansız olacaq. Məsələ burasındadır ki, yüksəksəviyyəli süni zəka tamamilə fərqli problemi özündə daşıyır və "robotların etikası" adı altında təqdim edilən digər mövcud problemlərdən fərqlənir. Bu, onunla bağlıdır ki, süni zəka çoxşaxəlidir və insan anlayışına sığmayan məqsədlərin yerinə yetirilməsi üçün istənilən resursu səfərbər edə bilər. Bu halda onun idarəsinə hansısa bir formada təsir göstərmək mənasızdır.

## Beyin implantı sahəsində növbəti nailiyyət



Amerika hospitallarının birində skleroz xəstəliyindən əziyyət çəkən pasientin nitq qabiliyyəti bərpa olunub. Bu, yeni beyin implantı sayəsində mümkün olub. Pasientin danışa bilmək bacarığını geri qaytarmaq üçün mütəxəssislər onun beyninin Brok (nitqdən cavabdeh olan sahə) sahəsinə xüsusi elektrodları cərrahiyyə üsulu ilə inteqrasiya ediblər.

Elektrodları beyinə yerləşdirən mütəxəssislər müəyyən testlər keçiriblər. Pasient əvvəl "hə" və "yox" kəlmələrini, daha sonra isə ayı-ayrı hecaları səsləndirib. Ona bir cümləni səsləndirməsi üçün 30 dəqiqə vaxt lazım olub.

Bu prosesin mənfi tərəfləri də müəyyən edilib. Belə ki, insan beyninə inteqrasiya edilmiş implantın effektivliyi müəyyən müddətdən sonra aşağı düşür. Bunun səbəbləri hələlik məlum deyil. Mütəxəssislər güman edirlər ki, bu fəsad implantın ətrafında əmələ gələn çapıq toxumaları nəticəsində meydana çıxır.

## İnsan qanında plastik hissəciklər var



Amsterdam Universitetinin alimləri yeni metodlardan istifadə edərək insan qanında plastik hissəciklərin mövcud olduğuna dair sübutlar əldə ediblər. Məlum olub ki, plastik tullantılar ətraf mühitə atıldıqdan sonra okean axınlarının, küləyin və ultrabənövşəyi şüalanmanın təsirlərinə məruz qalır. Nəticədə onlar mikroplastik adlanan kiçik hissəciklərə parçalanırlar. Bu mikroplastiklər heyvanların və balıqların, onlardan da qida zamanı insanların orqanizminə düşərək fəsadlara yol açır.

Alimlər təcrübədə iştirak etmiş 22 nəfər sağlam şəxsdən 16-nın qanında mikroplastik hissəcik aşkar ediblər. Bir millilitr qanda təxminən 1.6 mikroqram plastik tapılıb. Bu isə hər 1000 litr üçün bir çay qaşığı miqdarında mikroplastik deməkdir. Müəyyən olunub ki, qana ən çox keçən plastik hissəciklər polietilentereftalat fraqmentləri, polietilen və polistiroldur. Onlar hüceyrələrə toksik təsir göstərə və hətta onların formalarını dəyişə bilirlər. Bundan əlavə, həmin hissəciklər xolesterin səviyyəsinin yüksəlməsinə və ürək-damar xəstəliklərinin yaranmasına səbəb olur. Hazırda alimlər plastik hissəciklərin qandan toxumalara və orqanlara keçidi prosesini araşdırırlar.

## "İnstaqram"ın yeni funksiyası




Bir müddət əvvəl vəd edilən yeni funksiyalar artıq istifadəyə verilib. "İnstaqram"a daxil olmuş yeni mesajlara artıq birbaşa əsas səhifədən cavab vermək imkanı yaranıb. Bundan sonra istifadəçi bu və ya digər kontenti izləməyi dayandırmadan və mesaj bölməsinə keçmədən gələn mesaja əsas səhifədən cavab verə biləcək. Bundan əlavə, istifadəçi bu və ya digər musiqi parçasının 30 saniyəlik fraqmentlərini də mesaj vasitəsilə göndərəcək.

Yeni funksiya "Apple" və "Amazon" şirkətlərinin servis dəstəyi vasitəsilə "İnstaqram"a inteqrasiya edilib. Ona yaxın vaxtlarda "Spotify" musiqi servisinin dəstəyi də əlavə ediləcək.

Digər bir yenilik isə odur ki, "share" (paylaşma) düyməsini bir neçə saniyə basıb saxlamaqla istifadəçiyə yeni menyu təqdim olunacaq və bu, ona istənilən kontenti 4 dosta göndərmək imkanını verəcək. Mesaj bölməsinin yuxarı hissəsində isə onlayn abunəçilərin siyahısı qeyd ediləcək.

Yeni funksiyalar mərhələlərlə bütün istifadəçilər üçün aktivləşdiriləcək.

## "Watsapp"dan yenilik

**"Whatsapp"a əlavə edilən yeni funksiyalar səsli mesaj istifadəçilərini sevindirəcək. Əvvəllər onlar tətbiqin beta versiyasında aktiv idilər. İndi isə messencerin stabil versiyasında istifadəyə verilib. Yeni funksiyalar tədricən hamı üçün aktiv olacaq.**



"Whatsapp"a səsli mesajlarla bağlı əlavə edilmiş 6 yeni funksiya bunlardır:

- Qəbul edilmiş səsli mesaja çat xaricində qulaq asmaq imkanı yaradılıb. İstifadəçi bir çatda səsli mesaja qulaq asarkən rahatlıqla digərinə keçə bilər. Bu zaman səsli mesaj avtomatik olaraq dayandırılmayacaq;
- Səsli mesajın yazılması prosesini dayandırmaq və daha sonra qaldığı yerdən davam etmək olar;
- İstifadəçi səsli mesaja qulaq asan zaman onu dayandıra, daha sonra çata geri döndükdə elə dayandırdığı yerdən də qulaq asmağa davam edə bilər;
- Səsli mesaj vizuallaşdırılır. Səsli mesaja qulaq asarkən interfeysdə səs dalğaları əks olunacaq;
- Bundan sonra yazılmış səsli mesajı göndərməzdən əvvəl ona qulaq asmaq mümkün olacaq;
- 1.5x və 2x sürətləndirmə artıq adi səsli mesajlarla yanaşı, yönləndirilmiş səsli mesajlar üçün də aktivdir.

## Təmiz hava təmiz suya çevrilir

**"Microsoft" şirkətinin qurucusu Bill Qeyts havadan su əldə edən xüsusi hidropanellərin hazırlanması ilə məşğul olan "Source Global" layihəsini dəstəkləyib. Layihəyə artıq 150 milyon dollar investisiya yatırılıb. Şirkət tərəfindən hazırlanan hidropanellərə təmiz içməli su qıtlığı olan regionlarda böyük ehtiyac var.**



Hidropanellərin iş prinsipi havadan su buxarının udulmasına və onun aqreqat halına kimi sıxılmasına əsaslanır. Günəş şüalarının təsiri altında sistem molekulları təmiz içməli suya çevirir və o, xüsusi saxlama kameralarına yığılır.

Bu proses üçün nəzərdə tutulmuş ilk hidropanel Amerikanın Arizona Universitetinin müəllimləri tərəfindən 2014-cü ildə hazırlanıb. 2018-ci ildə Keniyada 40 hidropanel quraşdırılıb. "Biz, Günəş şüasından və havadan istifadə edərək planetin istənilən nöqtəsində təmiz su əldə edə bilirik. Bu üsulla suyu da bərpaolunan resursa çeviririk", - deyə universitetin alimləri qeyd ediblər.

İxtira artıq 52 ölkədə 450 müxtəlif layihədə istifadə edilir. Bir hidropanelin qiyməti 2000 dollardır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# "Azercell" Mobil Müştəri Xidmətləri Zəngilanın Ağalı kəndində

## Aparıcı mobil operator işğaldan azad olunmuş ərazilərdə müştərilərinə xidmət göstərən ilk şirkət kimi Qarabağa səfərlərini davam etdirir





**Aprelin 5-də "Azercell" Müştəri Xidmətləri komandası işğaldan azad olunmuş ərazilərimizdə şirkətin şəbəkəsindən faydalanan abunəçilərə dəstək göstərmək təşəbbüsü ilə Zəngilanın Ağalı kəndinə səfər edib.**

Xatırladaq ki, ötən ilin aprel ayında dövlət başçısı Prezident İlham Əliyevin "ağıllı şəhər" (Smart City) və "ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncamına əsasən, Zəngilan rayonunun Ağalı kəndinin ərazisində ilk "ağıllı kənd" layihəsinin təməli qoyulmuşdur. "Azercell Telekom" da bu konsepsiyaların nəzərdə tutduğu əşyaların internetinə (IoT) əsaslanan daha az enerji sərfiyyatlı şəbəkə infrastrukturunun sınaqlarını uğurla həyata keçirən Azərbaycanın ilk mobil operatoru oldu və bu istiqamətdə fəaliyyətini davam etdirməyə hazırdır.

"Azercell" Müştəri Xidmətlərinin əməkdaşları Həkəri çayının sahilində yerləşən Ağalı kəndində Zəngilanda çalışan abunəçilərlə görüşdülər. Səfər zamanı hərbçilər, tibb işçiləri, müxtəlif qurum və şirkətlərin əməkdaşları da daxil olmaqla, çoxsaylı abunəçiyə xidmət göstərilərək 50-dən çox fərqli müxtəlif müştəri əməliyyatı həyata keçirildi. Qeyd etmək lazımdır ki, bir qayda olaraq, "Azercell"in Müştəri Xidmətləri Mərkəzlərində göstərilən bütün növ xidmət və əməliyyatlar, o cümlədən yeni təsisat, sim kartın dəyişdirilməsi və nömrənin bərpası kimi əməliyyatlar Zəngilan abunəçiləri üçün ödənişsiz həyata keçirildi.

Xatırladaq ki, ötən ilin sentyabr ayında "Azercell"in Mobil Müştəri Xidmətləri mobil rabitə təminatçıları arasında ilk dəfə olaraq Şuşaya səfər etmiş və oradakı abunəçilərə ödənişsiz xidmətlər göstərmişdir. Bundan əlavə, "Azercell" şirkəti Şuşada "Azercell Eksklüziv" ofisini, həmçinin Zəngilanda rəsmi diler mağazasını açacaq.

"Azercell"in əsas vəzifəsi və məqsədi işğaldan azad olunmuş ərazilərdə tam gücü ilə yeni nəsil şəbəkənin genişləndirilməsini sürətləndirmək və bu ərazilərə qayıdacaq əhalini mobil internet və qabaqcıl kommunikasiya xidmətləri ilə təmin etməkdir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### XDND-nin Pirallahı sahəsində damba yük və yedək yanalma körpüsünün layihələndirilməsinin (AM072/2022) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 aprel 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Hüseynov küç, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***



## "Holcim" (Azərbaycan) ASC-nin səhmdarlarının nəzərinə!

"Holcim "(Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının illik ümumi yığıncağı 08.06.2022-ci il saat 10:00-da Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1065, İzmir küçəsi, 6 ünvanında yerləşən "Hyatt Regency" hotelinin Quba zalında keçiriləcəkdir. Səhmdarların qeydiyyatı saat 08:45-dən 09:45-dək zalın foyesində aparılacaqdır.

"Holcim" (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin 08.06.2022-ci ildə keçiriləcək səhmdarların illik ümumi yığıncağının gündəliyi:

1. "Holcim" (Azərbaycan) ASC-nin Səhmdarlarının illik ümumi yığıncağının sədrinin seçilməsi;
2. "Holcim" (Azərbaycan) ASC-nin 2021-ci il üzrə audit olunmuş maliyyə hesabatlarının təsdiqlənməsi;
3. 2021-ci ilin nəticələri üzrə xalis mənfəətin bölüşdürülməsi;
4. "Holcim" (Azərbaycan) ASC-nin Təftiş Komissiyasına üzvün təyin edilməsi;
5. "Holcim" (Azərbaycan) ASC-nin Nizamnaməsinə əlavələrin təsdiq edilməsi;
6. "Holcim" (Azərbaycan) ASC və "Holcim International Finance" LTD arasında borc müqaviləsinin müddətinin uzadılması.

***"Holcim" (Azərbaycan) ASC***



## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə!

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

24 may 2022-ci il saat 15:00-da "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının növbəti iclası keçiriləcək.

**Ünvan: Bankın Baş İdarəsi,**
**Bakı AZ1069, Atatürk prospekti, 42.**
**Telefon: 447-00-55.**

İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib. Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.



## К сведению акционеров ОАО "BANK OF BAKU"

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

24 мая 2022-го года в 15:00 состоится очередное заседание Общего Собрания Акционеров Открытого Акционерного Общества "Bank of Baku".

**Адрес: Головной Офис Банка, Баку**
**AZ1069, проспект Ататюрка, 42.**
**Телефон: 447-00-55.**

Повестка заседания и уведомление высланы акционерам. Материалы по повестке можно получить по указанному адресу.



## BİLDİRİŞ

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 30.12.2021-ci il tarixdə elan edilmiş:

- 500 kV-luq 2-ci "Abşeron" və 330 kV-luq 1-ci "Abşeron" hava xətlərinin yenidənqurulması və elektrikquraşdırma işləri;
- 330 kV-luq 4-cü "Mingəçevir" hava xəttinin yenidənqurulması və 37-38 saylı dayaqlararası aşırımda 330 kV-luq 5-ci və 6-cı "Mingəçevir" hava xətləri ilə kəsişmədə elektrikquraşdırma işləri;
- 110 kV-luq ikidövrəli "Böyükşor Yarımstansiyası - Binəqədi Yarımstansiyası" arası elektrik verilişi xətlərinin tikintisi və elektrikquraşdırma işləri;
- 110 kV-luq ikidövrəli "110/35/10 kV-luq "Kəlbəcər" Yarımstansiyası - 110/35/10 kV-luq "Qorçu" Yarımstansiyası" arası hava xəttinin tikintisi və elektrikquraşdırma işləri;
- 220 kV-luq 2-ci "Zabrat" hava xəttinin giriş-çıxış sxemi ilə "Böyükşor" Yarımstansiyasına, 220 kV-luq 4-cü "Zabrat" hava xəttinin giriş-çıxış sxemi ilə "Qala" Yarımstansiyasına, 110 kV-luq 2-ci "Maştağa" hava xəttinin giriş-çıxış sxemi ilə 220 kV-luq "Zabrat" Yarımstansiyasına qoşulması və elektrikquraşdırma işləri;
- 500 kV-luq "Samux-Qardabani" hava xəttində yenidənqurma və elektrikquraşdırma işləri;
- 110 kV-luq 1-ci və 2-ci "Şəmkir" elektrik verilişi xətlərinin giriş-çıxış sxemi ilə "Gəncə-2" Yarımstansiyasına qoşulması və 330 kV-luq 1-ci "Goranboy" hava xəttinin tikintisi və istismara verilməsi işlərinin satın alınması üzrə açıq tender üsulu ilə keçirilən müsabiqələrdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Azərelektrik Tikinti Quraşdırma" MMC, "Azenco" ASC, "Electro İndustries" QSC, "Elektrikquraşdırma" müəssisəsi müsabiqələrin qalibləri müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***








# Qubada torpaq sürüşməsi baş verən ərazidə aktivlik müşahidə olunmayıb



**Quba rayonunun Küsnətqazma kəndində torpaq sürüşməsi baş verən ərazidə son 5 gündə aktivlik müşahidə olunmayıb.**

Bu barədə AZƏRTAC-a Qəçrəş bələdiyyəsinin sədri Vüqar Kərimov bildirib.

Küsnətqazma kəndində sürüşmə prosesi aprelin 3-ü səhər saatlarından müşahidə olunub. Kəndin yuxarı hissəsində baş verən torpaq sürüşməsinin eni 50, uzunluğu isə 200-250 metrə çatır. Bir hektara yaxın ərazini əhatə edən sürüşmə sahəsi kənddəki evlərdən 300 metr məsafədədir. Kəndin həmin hissəsində 6 ev var. Bu ərazidə əvvəllər də torpaq sürüşməsi baş verib.

Torpaq sürüşməsi baş verən əraziyə Quba Rayon İcra Hakimiyyətinin, Fövqəladə Hallar Nazirliyinin, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yerli qurumlarının mütəxəssisləri baxış keçiriblər.

# Paytaxtdakı monitorinqlər zamanı aşkarlanan nöqsanlar aradan qaldırılır

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) və "Regional İnkişaf" İctimai Birliyi (RİİB) arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində paytaxtın sosial, ictimai və mədəni inkişafına dəstək olaraq həyata keçirilən tədbirlərin icrası davam etdirilir.**



BŞİH-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təsdiqlənmiş fəaliyyət planına uyğun olaraq, RİİB könüllüləri və icra hakimiyyətinin əməkdaşları tərəfindən paytaxtın bir sıra rayonlarında monitorinqlər aparılıb. Keçirilən birgə monitorinqlər zamanı yaşıllıq zolaqlarının salınması, küçələrin işıqlandırılması, asfalt örtüklərinin yenilənməsi, abadlıq işlərinin görülməsi, vətəndaşların rahat və təhlükəsiz hərəkəti üçün səkilərin salınmasına ehtiyac olan məkanlar və şəhərdə sakinlər üçün narahatçılıq yaradan digər amillər müəyyən edilir. Həmçinin vətəndaşlar tərəfindən qarşılaşdıqları problemlərlə bağlı bu qurumlara edilən müraciətlər də araşdırılır.

İlkin olaraq paytaxtın Səbail və Nərimanov rayonlarının ərazisindəki küçə və prospektlər, parklar, məhəllələrdə monitorinqlər aparılıb, nəticələri araşdırılaraq aşkarlanan çatışmazlıqların böyük hissəsi aidiyyəti qurumlar tərəfindən aradan qaldırılıb, digər məsələlərlə bağlı işlər isə davam etdirilir. Həmçinin böyükhəcmli işlərin görülməsi istiqamətində müvafiq tədbirlər planı hazırlanıb.

Monitorinqlər zamanı Nərimanov rayonu, Fətəli Xan Xoyski küçəsində səkilərin vəziyyətinin qənaətbəxş olmadığı müəyyən edildiyi üçün burada təmir-bərpa işləri aparılıb, hazırda yekunlaşmaq üzrədir. Küçənin digər hissəsindəki səkilərə daş döşənməsinə hazırlıq görülür, qazon örtüyü yenilənir, yeni güllər əkilir.

Səbail rayonunda yerləşən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısı təmir edilərək yerə tamet daş döşənib. Paralel olaraq İçərişəhərdə bir küçə təmir edilib, bir neçə digər ünvanda da işlər aparılır.

Paytaxt rayonlarında birgə monitorinqlərin keçirilməsi davam etdirilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5634
Sifariş 918
Qiyməti 40 qəpik